QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 113 (5585) 14 **iyun** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətı 40 qəpik**

# Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub



Səh 2

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib**



2

**Ramiz Mehdiyev Qazaxıstan nümayəndə heyəti ilə görüşüb**



4

**Parisdə Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədliyinin təqdimatı olub**



5

**"Nursultan Nazarbayev. Həyat yolu" kitabının təqdimatı keçirilib**



6

**Qurtuluşdan başlayan tərəqqi və yüksəliş sonrakı dövrdə Azərbaycanın müstəqil dövlət kimi sürətli inkişafını təmin etdi**



8

**DSX-nin rəisi Elçin Quliyev Gürcüstanın Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzeni qəbul edib**



7

14

**Sorosun uşaqları yenə də iş başındadırlar**



12

**Nikol Paşinyan aldanmağı özünə və ölkəsinə rəva bilir**



16

**FIFA Rusiyadakı dünya çempionatından 6,1 milyard dollar gəlir götürəcək**



# Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub

**_İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları görüşdə çıxış ediblər. Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısını salamlayıb:_**



-Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz.

Ümidvaram ki, Moskvada vaxtınızı səmərəli və maraqlı keçirəcəksiniz. Ona görə maraqlı keçirəcəksiniz ki, oyun gözəl olacaq. Ona görə səmərəli keçirəcəksiniz ki, çoxsaylı ölkələrdən çoxlu həmkarlarımız gəlib, hamı ilə söhbət etmək, görüşmək, kiminlə tanış olmaq imkanı var. MDB üzrə ən yaxın həmkarlarımızla cari məsələlər barəsində informasiya mübadiləsi aparmaq da



mümkün olacaq.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə isə, avqustun 30-da Sizin Rusiyaya səfərinizin gedişində həmin münasibətləri hərtərəfli və dərindən müzakirə edəcək, bununla məşğul olacağıq. O vaxta qədər isə həmkarlarımız işləyəcək və Sizin Rusiyaya səfərinizi hazırlayacaqlar.

Lakin artıq indidən demək olar ki, bizim münasibətlərimiz inkişaf edir, özü də çox uğurla inkişaf edir. Ötən il ərzində bizdə əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni, bu, çox yaxşı artım tempidir və biz bunu dəstəkləməliyik. Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz!

x x x

Azərbaycan Prezidenti İlham Əliyev:

-Sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Sizi ötən dövlət bayramınız - dünən qeyd olunmuş Rusiya Günü münasibətilə təbrik etmək istərdim. Futbol üzrə dünya çempionatına hazırlığın uğurla başa çatması münasibətilə də təbrik etmək istəyirəm. Bu, dünyanın əsas idman hadisəsidir. Əminəm ki, çempionatın özü də çox uğurla keçəcək, bütün qonaqlar razı qalacaqlar.

Bizim münasibətlərimizə gəldikdə, mən də onların inkişafından məmnun olduğumu bildirmək istərdim. Avqustun sonunda Rusiyaya səfərə dəvətinizə görə təşəkkür etmək istərdim. Lakin bu gün də bizim kifayət qədər geniş gündəliyimizdəki cari məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan var.

Düşünürəm ki, bizim daimi xarakter daşıyan müntəzəm əlaqələrimiz münasibətlərimizə böyük təkan verir. Biz bunun yaxşı nəticələrini görürük. Bizim qarşılıqlı siyasi fəaliyyətimiz çox yüksək səviyyədədir. Biz etibarlı dostlar və tərəfdaşlar, strateji tərəfdaşlarıq. Siz qeyd etdiyiniz kimi, iqtisadi sahədə dinamika ötən il də, bu il də çox müsbətdir. İqtisadi əməkdaşlığın genişləndirilməsinə dair planlar var. Biz "Şimal-Cənub" layihəsinin həyata keçirilməsinin artıq konkret nəticələrini görürük. Artıq Azərbaycan vasitəsilə Rusiyadan yükdaşımalar artır, bu da bizim fəaliyyətimizin müsbət nəticəsidir. Hesab edirəm ki, bütün sahələrdə, humanitar sahədə bizim münasibətlərimiz, ümumiyyətlə, nümunəvidir. Belə ki, yaxşı dinamikaya, yaxşı nəticələrə nail olduğumuza görə şadam və gələcəyə, əlaqələrimizin möhkəmlənməsinə ümidlə baxırıq. Dəvətinizə görə bir daha sağ olun.



## Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə ilahi hikmətlər xəzinəsi "Qurani-Kərim"in on bir ayın sultanı sayılan mübarək Ramazan ayında nazil olduğu bildirilir. Qeyd edilir ki, müsəlmanlar bu ayda Uca Yaradan qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Təbrikdə deyilir: "Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir. Bu mübarək ayda xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi naminə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini minnətdarlıqla yad edirəm.

Əlamətdar haldır ki, builki Ramazan günləri müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley təntənələri ilə bir vaxta təsadüf edir. Müstəqil dövlətçiliyimizin bərpasından sonra ölkədə mütərəqqi islami dəyərlərin bərqərar edilməsi cəmiyyətimizin mənəvi-əxlaqi yüksəlişinə təkan vermiş, öz milli köklərinə daim sadiq qalan xalqımızın bütövlüyünü, vəhdətini və həmrəyliyini daha da gücləndirmişdir. Bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Azərbaycanın oğul və qızlarının sarsılmaz mübarizə əzmi və yüksək vətənpərvərliyi tarixi ənənəyə və milli-mənəvi dəyərlərə bağlılığın bariz nümunəsidir".

Könül xoşluğu ilə yola saldığımız Ramazan ayının artıq başa çatdığını bildirən dövlətimizin başçısı təbriki bu sözlərlə bitirir: "Bu əziz bayram günlərində bir daha etdiyiniz dua və niyyətlərin Ulu Tanrı dərgahında qəbul olunmasını arzu edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət diləyirəm.

Ramazan bayramınız mübarək olsun!".

# Azərbaycanın tranzit ölkələr boyunca iqtisadi və strateji əhəmiyyəti artır

*TANAP və TAP ölkəmizin növbəti 20-30 ildəki uğurunun bariz və məntiqi göstəricisidir*

***Azərbaycan təbii qazını Türkiyəyə, oradan da Avropaya nəql edəcək Trans-Anadolu Boru Qaz Kəmərinin (TANAP) Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakları ilə açılış mərasimi baş tutduqdan sonra, artıq bir sıra yerli və xarici ekspertlər də vurğulayırlar ki, bu layihə Azərbaycanın tranzit ölkələr boyunca iqtisadi-strateji əhəmiyyətini artırır və ölkəmizin regionda dominatlığını təmin edir.***




Belə ki, TANAP sosial lisenziya qazanıb və Avropa İttifaqı tərəfindən bu layihənin dəstəklənməsi Azərbaycanın əhəmiyyətinin növbəti onilliklərdə qorunmasına böyük töhfə vermiş olur. Prezident İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimində çıxış edərək, bu iqtisadi layihənin əhəmiyyətindən danışıb: "Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir."




Dövlətimizin başçısı deyib ki, bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Azərbaycan Prezidenti vurğulayıb ki, bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Onu da qeyd edə bilərik ki, TANAP və TAP layihələri Azərbaycanın növbəti 20-30 ildəki uğurunun bariz və məntiqi göstəricisidir. Belə ki, bu layihələr Azərbaycanın ticarət əlaqələrinin genişlənməsinə, ölkəmizə kapital axınının artımına böyük imkanlar yaratdığı üçün ölkəmizin tarixi nailiyyətidir.

### Azərbaycan rəqabətə girmədən müstəqil beynəlxalq oyunçu statusunu möhkəmləndirir

Bu arada digər maraqlı məqam layihə ilə bağlı ekspertlərin verdikləri rəylər və mülahizələridir. Belə ki, "Tsarqrad" telekanalının siyasi icmalçısı, siyasi elmlər namizədi Kamran Həsənov mətbuata açıqlamasında bildirib ki, Azərbaycan qazı Türkiyəyə ixrac olunacaq, Bolqarıstanın qoşulmaq niyyətində olduğu Yunanıstandan İtaliyaya gedəcək qaz kəməri 2020-ci ildə istifadəyə veriləcək. TAP İtaliyanın sərfiyyatının 17 faizini təmin edəcək. Eyni zamanda, analitikə görə, "Cənub Qaz Dəhlizi"nin gücü illik 16 milyard kubmetr qiymətləndirilir, bunun 6 milyardı Türkiyəyə, 10 milyardı isə Avropaya ixrac olunacaq.

Beləliklə, Cənub-Şərqi Avropanı təbii qazla təmin edəcək bu kimi mühüm layihələr gələcəkdə Xəzər hövzəsində hasil olunan təbii qazın qitənin digər böyük qaz istehlakçılarına - Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriyaya ötürülməsi üçün də geniş imkanlar açacaq ki, bu faktın özü ölkəmizin əhəmiyyətini bir daha nəzərəçarpacaq dərəcədə nümayiş etdirir.

***Rövşən NURƏDDİNOĞLU***

# Ramiz Mehdiyev Qazaxıstan nümayəndə heyəti ilə görüşüb







***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri Mahmud Kasımbekovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl akademik Ramiz Mehdiyev Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə Qazaxıstan nümayəndə heyəti üzvlərinin "Tərəqqi" medalı ilə təltif edildiklərini diqqətə çatdırıb və medalları onlara təqdim edib.***

Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin postsovet məkanında nümunəvi olduğunu qeyd edən Ramiz Mehdiyev ulu öndər Heydər Əliyev ilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında həmişə sıx dostluq əlaqələrinin olduğunu, Ümummilli Liderin Qazaxıstan dövlətinin başçısının fəaliyyətini daim yüksək qiymətləndirdiyini və Prezident Nursultan Nazarbayevin də ulu öndər Heydər Əliyevə böyük hörmətlə yanaşdığını deyib.

Qeyd olunub ki, müstəqilliklərini bərpa etdikdən sonra mürəkkəb dövrlər keçən Azərbaycan və Qazaxıstan Heydər Əliyev və Nursultan Nazarbayevin müdrik siyasəti sayəsində çətinlikləri dəf edərək sürətli inkişaf yoluna qədəm qoyub. Diqqətə çatdırılıb ki, bu gün xalqlarımız və dövlətlərimiz arasındakı dostluq və əməkdaşlıq ənənələri prezidentlər İlham Əliyev və Nursultan Nazarbayev tərəfindən uğurla davam etdirilir. Ötən dövr ərzində dövlətlərimiz arasında 100-dən artıq sənəd imzalanıb, qarşılıqlı sərmayə yatırımları həyata keçirilib. Beynəlxalq təşkilatlarda ölkələrimiz bir-birini daim dəstəkləyir, parlamentlər arasında əməkdaşlıq münasibətləri yüksək səviyyədədir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışan akademik Ramiz Mehdiyev torpaqlarımızın 20 faizinin hələ də Ermənistanın işğalı altında olduğunu deyib. Prezident Administrasiyasının rəhbəri ölkəmizin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu, eyni zamanda, Azərbaycanın torpaqlarını digər yollarla azad etmək kimi suveren hüququnu özündə saxladığını vurğulayıb.

Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri Mahmud Kasımbekov Prezident Nursultan Nazarbayevin salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Azərbaycanla bağlı hər şeyə Qazaxıstanda həssaslıqla yanaşıldığını deyən qonaq əsası Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulan möhkəm dostluq əlaqələrinin bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb. O, bir müddət əvvəl Astanada ulu öndər Heydər Əliyevə həsr edilən kitabın qazax dilində nəşrinin təqdimatının keçirildiyini xatırladıb, bu gün isə Nursultan Nazarbayevin həyat və fəaliyyəti ilə bağlı nəşrin Bakıda təqdim ediləcəyini deyib. Bildirilib ki, hazırda Qazaxıstanda 150 minə yaxın azərbaycanlı yaşayır və onlar cəmiyyətin bütün sahələrində təmsil olunurlar. Qazaxıstan nümayəndə heyətinin rəhbəri dostluq və tərəfdaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Sonda Mahmud Kasımbekov ümummilli lider Heydər Əliyev haqqında qazax dilində yazılan və bu ilin may ayında Astanada təqdimatı keçirilən "Vətəninə yol açmış" kitabını akademik Ramiz Mehdiyevə təqdim edib.



# Parisdə Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə namizədliyinin təqdimatı olub

***İyunun 13-də Parisdə Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının 163-cü sessiyasında “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyinə namizədlik təqdimatları keçirilib. AZƏRTAC xəbər verir ki, sessiyada Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti üzvlərinin Bakı şəhərinin namizədliyi ilə bağlı təqdimatları dinlənilib. Təqdimat Azərbaycanın Baş naziri Novruz Məmmədovun çıxışı ilə başlayıb.***






Baş nazir çıxışında Bakının namizədliyinin hökumətimiz və cəmiyyətimiz tərəfindən tam dəstəkləndiyini vurğulayıb. Bildirib ki, bu dəstək Bakının doğru zamanda doğru məkan olduğunu göstərir.

Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etməyə tam hazır olduğunu bildirən Azərbaycanın Baş naziri deyib: “Universal sərgilər beynəlxalq əməkdaşlıq üçün böyük fürsət yaradan müxtəlifliyin nadir nümayişidir. Azərbaycan Respublikası Beynəlxalq Sərgilər Bürosunun dəyərlərini və görüşlərini bölüşür. Azərbaycan Ümumdünya Sərgisi və Beynəlxalq Sərgilər Bürosu ilə birgə tarix yazmağa hazırdır. Azərbaycan Beynəlxalq Sərgilər Bürosunun ən etibarlı tərəfdaşı olacağına təminat verir. Bu məsuliyyəti asan hesab etmirik. Ümumdünya Sərgisinə ev sahibliyi etmək Azərbaycan üçün prioritetdir. “Ekspo 2025”ə ev sahibliyi xalqımızın potensialının reallaşması üçün yaxşı fürsət olacaq.

Azərbaycan qitələrin və sivilizasiyaların kəsişməsində yerləşir. Ölkəmiz əsrlər boyu Qərb və Şərq, Şimal və Cənub arasında siyasət, iqtisadiyyat və ticarət körpüsü olub. İki min il ərzində qədim İpək Yolu müasir Azərbaycan torpaqlarından keçib və keçir. Ümumdünya Sərgisini keçirməklə ölkəmiz mədəniyyətlərarası dialoqa, tolerantlığa daha böyük töhfə verə bilər. Əsrlər boyunca Azərbaycanda müxtəlif etnik qruplar və dinlər sülh və qarşılıqlı hörmət mühitində birgə yaşayıblar. Cəmiyyətimiz, dövlətimiz dünyəvidir və biz bundan qürur duyuruq.

Bu gün Azərbaycan mədəniyyətlərarası və dinlərarası beynəlxalq mübadilələr mərkəzinə çevrilib. Müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələri arasında ən yaxşı qarşılıqlı anlaşmanı təşviq etmək üçün beynəlxalq platforma yaratmışıq. Bu platforma bu gün dünyanın üzləşdiyi bəzi problemləri həll etməyə imkan verir. Belə platformalara BMT, UNESCO, Avropa Şurası tərəfindən dəstəklənən, iki ildən bir keçirilən Bakı Beynəlxalq Humanitar Forumunu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu misal göstərə bilərik.

“Bakı Ekspo 2025” milli inkişafın aparıcı amili olan insan kapitalının inkişafına sərmayə yatırmaq kimi milli strategiyamıza tam uyğundur. 1991-ci ildə müstəqilliyi bərpa etdikdən sonra Azərbaycan fövqəladə bir inkişaf yolu keçib. İnklüziv və davamlı inkişaf ölkəmizin forma və istiqamətini dəyişib. “Ekspo” sərgisi bu müstəsna inkişafı dünyaya təqdim etməyə imkan verəcək.

“İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması” mövzusunu təklif etmək qərarına gəldikdə isə o, təcrübəmizə və daha da inkişaf etmək istiqamətində gördüyümüz işlərə əsaslanır.

Səylərimiz dərin izlər qoyub. 2015-ci ildə əhalinin rifahının yaxşılaşdırılmasına, eləcə də BMT-nin Minilliyin İnkişaf Məqsədlərində nəzərdə tutulan vəzifələri müvəffəqiyyətlə yerinə yetirməsinə görə Azərbaycan Cənub-Cənub mükafatına layiq görülüb. Tariximiz boyunca İpək Yolu səyahətçilərinin axını Azərbaycana misilsiz tolerantlıq, zəngin mədəniyyət və əsl yaradıcılığı ilə tanınan nadir bir ölkə nüfuzu qazandırıb. Namizədliyimiz qəbul olunduğu təqdirdə, Şərqi Avropa, Qafqaz və Xəzər dənizi regionlarında Bakı Ümumdünya Sərgisinə ev sahibliyi edəcək ilk şəhər olacaq.

“Bakı 2025” sərgisi Beynəlxalq Sərgilər Bürosuna yeni məkanda yeni auditoriya cəlb etmək imkanı yaradacaq, yeni regionda, yeni bir dövrdə yeni tarixlər yazmaq şansı verəcək. Bu, Azərbaycan xalqına Beynəlxalq Sərgilər Bürosuna onun ən yaxşı tərəfdaşlarından biri olduğunu göstərməyə imkan verəcək.

Bakı ölkəmizin dünyaya təqdim etdiyi töhfələrin qürurlu simvolu kimi daim inkişaf edir. Şəhər dəniz sahilində və sivilizasiyaların qovuşduğu bir məkanda sürətlə inkişaf edir. Bakı Şərq ilə Qərbin görüşdüyü, keçmişin gələcəklə qarşılaşdığı şəhərdir, yeni tarixi yazmağa hazır olan məkandır. Bakı yeni dövrdə Qafqaz regionunun ən böyük və ən sürətlə inkişaf edən şəhəridir.

Bakının Ümumdünya Sərgisinə ev sahibliyi etmək istəyimiz səmimidir və qəlbimizin dərinliyindən gəlir. Təklif etdiyimiz mövzu vacibdir və əsl qlobal əhəmiyyət daşıyır. Azərbaycan sərgi məkanının tikintisi və idarə olunması üçün bütün lazımi vəsaitləri təmin etməyə və Beynəlxalq Sərgilər Bürosunun qaydalarına riayət etməyə hazırdır. Əminik ki, Bakı Ümumdünya Sərgisi üçün ən yaxşı şəhərdir. Bakının qələbə zamanı çatıb”.

Sonra Azərbaycan Respublikasının maliyyə naziri, “Bakı Ekspo 2025” Ümumdünya Sərgisinin işçi qrupunun rəhbəri Samir Şərifov sərgi iştirakçılarının rahatlığı, xarici vətəndaşlar üçün yaradılan şəraitdən, “ASAN Viza” rejimindən, ölkəmizin ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlərdən danışıb, 40 mindən çox könüllünün həmin tədbirlər zamanı göstərdiyi xidməti diqqətə çatdırıb. “Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının Parisdə keçirilən sessiyasında Büronun üzvü olan bütün dövlətlərin səlahiyyətli nümayəndələrinə 2025-ci ildə Ümumdünya Sərgisinə Bakının ev sahibliyinə namizədliyi ilə bağlı təqdimata ayırdıqları vaxta, göstərdikləri maraq və diqqətə görə minnətdarıq. Baş nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətimiz üçün bu təqdimat azərbaycanlıların, xüsusilə gənclərimizin “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etmək arzusunu əyani şəkildə çatdırmaq baxımından vacib bir imkandır. Biz namizədlik kampaniyasının həlledici mərhələsinin başlanmasını səbirsizliklə gözləyirik”, - deyə Samir Şərifov diqqətə çatdırıb.

“Bakı Ekspo 2025” Ümumdünya Sərgisinin işçi qrupunun üzvü Məryəm Qafarzadə Bakı şəhərinin “Ekspo 2025” sərgisinə seçdiyi mövzu ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanın paytaxtı namizəd şəhər kimi bu sərgidə əsasən insan amilinə üstünlük verir. Bu cür sərgilər bütün insanları bir millət kimi birləşdirir. “Sərginin əsas mövzusu “İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması”dır”, - deyən Məryəm Qafarzadə Azərbaycanda həyata keçirilən dövlət siyasəti sayəsində insan kapitalının inkişafı sahəsində qazanılan uğurlardan danışıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, ölkəmizin Beynəlxalq Sərgilər Bürosundakı nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov “Ekspo” hərəkatının fəal üzvü olan Bakıda “Ekspo 2025” üçün seçilən məkan haqqında ətraflı məlumat verib. Bildirib ki, Bakının beynəlxalq hava limanına yaxın, bütün nəqliyyat infrastrukturu ilə təmin edilmiş 200 hektarlıq məkanda böyük “Ekspo” kəndi salınacaq. “Bakı Ekspo 2025” sərgisinin qurulacağı sahə barədə danışan Birinci vitse-prezidentin köməkçisi deyib ki, ərazi rəmzi olaraq səkkizguşəlidir. Gələcək üçün ümid və istək nümunəsi olan bu rəmz Azərbaycanın müxtəlifliyini tərənnüm edir.

Azərbaycana etimad göstərilməsinin vacibliyini vurğulayan Elçin Əmirbəyov “Bakı Ekspo 2025” üçün nəzərdə tutulan məkanda müxtəlif növ tədbirlərin keçirilməsi üçün geniş imkanların yaradılacağını bildirib. O, “Ekspo” hərəkatının sadiq tərəfdaşı kimi Azərbaycanın bu məsələyə böyük məsuliyyətlə yanaşdığını vurğulayıb.

Təqdimat zamanı Azərbaycan haqqında və Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə namizəd şəhər olması barədə hazırlanmış filmlər nümayiş etdirilib. Filmlərdə bəşəriyyət üçün çox vacib olan insan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması mövzusunun 2025-ci ildə Bakıda müzakirə etməyə dəvət səslənib.

Təqdimatlarda “Ekspo 2025” Ümumdünya Sərgisi üçün Bakının təklif etdiyi layihənin əhatəli və ümumbəşəri mahiyyət daşıdığı, inkişaf etməkdə olan ölkələrin iştirakının təmin olunmasının xüsusi əhəmiyyəti vurğulanıb.

Azərbaycanın sərgi üçün təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusunun səhiyyə, təhsil və məşğulluğu əhatə etməklə bütün ölkələr, bütün mədəniyyətlər və insanlar üçün maraq kəsb etdiyi diqqətə çatdırılıb. Qeyd edək ki, Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının növbəti sessiyası 2018-ci ilin noyabr ayında keçiriləcək. Bu sessiyada Beynəlxalq Sərgilər Bürosuna üzv dövlətlərin nümayəndələri gizli səsvermə yolu ilə 2025-ci ildə Ümumdünya Sərgisinə ev sahibliyi edəcək şəhəri müəyyənləşdirəcəklər.

# “Nursultan Nazarbayev. Həyat yolu” kitabının təqdimatı keçirilib






*Heydər Əliyev Mərkəzində Qazaxıstanın milli lideri Nursultan Nazarbayevin həyat və fəaliyyətindən bəhs edən “Nursultan Nazarbayev. Həyat yolu” kitabının Azərbaycan dilində nəşrinin təqdimat mərasimi keçirilib. SİA-nın verdiyi məlumata görə, kitabın layihə rəhbəri və müəllifi Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri, siyasi elmlər doktoru, professor Mahmud Kasımbekovdur.*






Nəşrdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin həyat yolu, xalqı və dövləti naminə apardığı mübarizədən bəhs olunur. Kitabda Nursultan Nazarbayevin şəxsi arxivindəki sənədlər və şəkillər də yer alıb. Kitaba ön sözü Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov yazıb. Tədbirin əvvəlində Nursultan Nazarbayevin fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Əli Həsənov ilk növbədə Prezident İlham Əliyevin Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə görə, Qazaxıstanın bir qrup dövlət və elm xadiminin “Tərəqqi” medalı ilə təltif olunması haqqında sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Əli Həsənov qeyd edib ki, Nursultan Nazarbayev adi bir dövlət başçısı deyil, Qazaxıstanın tarixi inkişafının təməlini qoyub. Prezidentin köməkçisi bildirib ki, kitabın ərsəyə gəlməsi Azərbaycan dövlətinin təşəbbüsü ilə baş tutub. Kitab oxucuları Nursultan Nazarbayevin fəaliyyəti və liderlik keyfiyyətləri ilə yaxından tanış edir.

Əli Həsənov vurğulayıb ki, 1990-1992-ci illərdə bütün postsovet respublikaları müstəqillik qazandılar. Qazaxıstan da SSRİ-dən ayrılarkən ölkənin vəziyyəti heç də Azərbaycandan yaxşı deyildi. Sovet hakimiyyəti illərində Qazaxıstan xalqının etnik tərkibində ciddi dəyişiklik olmuşdu: “Qazaxıstanda şəhərdə yaşayan əhali ilə kənddə yaşayan əhali arasında ciddi uçurum yaranmışdı, şəhərdə yaşayan əhali qazax mentalitetindən, milli identikliyindən uzaqlaşmışdı, Qazaxıstana çoxlu sayda etnik qruplar köçürülmüşdü. Nursultan Nazarbayev bütün bu məsələləri ustalıqla yoluna qoydu, heç bir qarşıdurma yaratmadan Qazaxıstan xalqını bir araya gətirdi və inkişaf yolu ilə apardı. Nursultan Nazarbayevin siyasəti nəticəsində Qazaxıstanda millətlər bir-biri ilə dostluq şəraitində yaşayırlar”.




Prezidentin köməkçisi qeyd edib ki, Qazaxıstanla Azərbaycan arasında əlaqələr həmişə yüksək səviyyədə olub: “Ulu Öndər Heydər Əliyevin və Nursultan Nazarbayevin yaratdığı strateji dostluq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazaxıstan Azərbaycana ən çox investisiya yatıran ölkələrdən biridir”.

Sonra tədbirdə çıxış edən Qazaxıstanın mədəniyyət və idman naziri Arıstanbek Muxamediulı kitabın çapında əməyi keçən hər kəsə təşəkkürünü bildirib. O bildirib ki, bu kitabın çapı iki ölkə arasında yüksək əlaqələrin və həqiqi dostluğun göstəricisidir. A.Muxamediulı vurğulayıb ki, Nursultan Nazarbayevin siyasəti nəticəsində Qazaxıstan dünyada böyük nüfuz qazanıb: “Nursultan Nazarbayev Qazaxıstanı çətin bir dönəmdən çıxararaq inkişaf yolu ilə aparıb. Bu gün Qazaxıstan uğurla inkişaf edir”. Azərbaycanla Qazaxıstan arasında yüksək əlaqələrin mövcud olduğunu diqqətə çatdıran nazir əlavə edib ki, iki ölkə uğurla əməkdaşlıq edir.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə qeyd edib ki, Azərbaycan və Qazaxıstan xalqları bənzər tale yaşayıblar, hər iki xalq soyqırımlara məruz qalıb. A.Əlizadə bildirib ki, sovet hakimiyyəti dağılan zaman Nursultan Nazarbayev öz xalqının yanında oldu, Qazaxıstanı çətin durumdan çıxarmağı bacardı: “Azərbaycanla Qazaxıstan arasında Ulu Öndər Heydər Əliyevin və Nursultan Nazarbayevin yaratdığı əlaqələr bu gün də uğurla davam edir”.

AMEA prezidenti deyib ki, Nursultan Nazarbayev qlobal miqyaslı siyasi xadim sayıla bilər. A.Əlizadə kitabın çapını çox yüksək dəyərləndirib və bildirib ki, kitab Nursultan Nazarbayev haqqında oxuculara geniş məlumat verir.

Daha sonra çıxış edən Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli qeyd edib ki, Nursultan Nazarbayev Qazaxıstanı müstəqilliyinin ilk illərində mürəkkəb vəziyyətdən çıxararaq dünya miqyasında etibarlı ölkə halına gətirdi.

O bildirib ki, Nursultan Nazarbayevdən bəhs edən bir kitabın Azərbaycan dilinə tərcümə edilməsi gözəl tarixi hadisədir: “Azərbaycanla Qazaxıstan arasında sovet dönəmindən yaxşı münasibətlər olub və hər iki dövlət müstəqillik qazandıqdan sonra bu əlaqələr daha yüksək səviyyəyə çıxıb. Bu gün ölkələr bütün sahələrdə uğurlu əməkdaşlıq edirlər”.

Milli Məclisin deputatı Cavanşir Feyziyev isə bildirib ki, Nursultan Nazarbayevin fəaliyyəti haqqında bütün incəliklər kitabda təsvir edilir. Kitabın müəllifi müasir tarixi salnamə yaradıb. C.Feyziyev qeyd edib ki, Nursultan Nazarbayevin rəhbərliyi dövründə Qazaxıstan inkişaf yoluna qədəm qoyub: “Öz dövründə bütün mərhələləri uğurla keçib siyasi hakimiyyətə gələn Nursultan Nazarbayev xalqın mili maraqlarının təmin olunmasında məsuliyyətini dərk edirdi və öz siyasi fəaliyyəti ilə Qazaxıstanı dünyanın nüfuzlu ölkələrindən birinə çevirdi”.

Sonda tədbirdə çıxış edən Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri, kitabın müəllifi Mahmud Kasımbekov kitabı Azərbaycan dilinə nəşr etdirdiyinə görə Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirib və qeyd edib ki, Azərbaycanla Qazaxıstan arasında həmişə yüksək dostluq və qardaşlıq münasibətləri olub.

Müəllif Nursultan Nazarbayevin Qazaxıstan xalqı qarşısında gördüyü xidmətlərdən danışıb və bildirib ki, Qazaxıstan bügünkü inkişafa məhz Nursultan Nazarbayevin fəaliyyəti nəticəsində nail olmağı bacarıb. Tədbirin sonunda Əli Həsənov qeyd edib ki, bir il ərzində Ulu Öndər Heydər Əliyev haqqında kitabın Qazaxıstanda Nursultan Nazarbayev Mərkəzində və Nursultan Nazarbayev haqqında kitabın Azərbaycanda Heydər Əliyev Mərkəzində təqdim edilməsi böyük əhəmiyyətə malikdir. Əli Həsənovun sözlərinə görə, liderlər haqqında kitabların qardaş xalqların dillərinə tərcümə edilib yayılmasında məqsəd ondan ibarətdir ki, xalqlarımız bir-birini daha yaxından tanısın.

***Ceyhun Rasimoğlu***



# DSX-nin rəisi Elçin Quliyev Gürcüstanın Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzeni qəbul edib



***2018-ci ilin iyun ayının 11-13 tarixlərində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin dəvəti ilə Gürcüstanın Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olmuşdur.***

Nümayəndə heyəti ilk olaraq Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarları önünə əklil qoyaraq, onların ruhuna hörmət və ehtiramlarını bildirmiş, daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad etmişlər.

Görüşdə Azərbaycan-Gürcüstan dövlət sərhədindəki vəziyyət və onun gələcək dövrdə inkişaf tendensiyaları barədə fikir mübadiləsi aparılmış, sərhəd təhlükəsizliyinə qarşı təhdidlərlə mübarizə sahəsində qarşılıqlı əlaqənin inkişaf etdirilməsi, dövlət sərhədinin delimitasiyası üzrə işlərin sürətləndirilməsi məqsədilə zəruri fəaliyyətin davam etdirilməsi, habelə, gələcək illər üçün əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi kimi məsələlər müzakirə edilmişdir.

Müzakirələr zamanı ikitərəfli əməkdaşlığın inkişafı müsbət qiymətləndirilmiş, Azərbaycan və Gürcüstanın sərhəd-mühafizə qurumları arasındakı əlaqələrin dövlət sərhədində hər hansı qanunsuz fəaliyyətin qarşısının alınması üzrə məsələlərin həll edilməsinə töhfə verdiyi vurğulanmışdır.

Bununla yanaşı, görüşdə Azərbaycan Respublikasının dövlət sərhədindəki əməliyyat şəraiti və mövcud təhdidlər, o cümlədən, Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20%-nin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, işğal olunmuş ərazilərin transsərhəd cinayətkar fəaliyyətlər üçün istifadə edildiyi, mövcud vəziyyətin sərhəd təhlükəsizliyi üçün əsas təhdid olduğu vurğulanmış, sərhədmühafizə sisteminin gücləndirilməsi, müasir təlim-tədris sisteminin həyata keçirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər və əldə olunmuş nailiyyətlər barəsində qonaqlara ətraflı məlumat verilmişdir.

Gürcüstan nümayədə heyəti səfər zamanı Dövlət Sərhəd Xidməti Aparatının struktur bölmələri, Sahil Mühafizəsi, DSX Akademiyası, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Xüsusi Məktəb və digər bölmələrin fəaliyyəti ilə tanış edilmişlər.

İkitərəfli əməkdaşlığın normativ-hüquqi bazasının inkişaf etdirilməsi məqsədilə nümayəndə heyətlərinin rəhbərləri tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin və sərhəd komissarlarının fəaliyyəti haqqında Saziş" imzalanmışdır.

Səfər dostluq və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

***Rövşən***

# "Qurtuluşdan tərəqqiyə 25 il"

*Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Xaçmazda 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib*






Dünən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Xaçmazda 15 İyun Milli Qurtuluş Günü münasibətilə " Qurtuluşdan tərəqqiyə 25 il" mövzusunda zona tədbiri keçirilib. Tədbirdə YAP Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı rayon təşkilatları gənclər birlikləri sədrləri və üzvləri iştirak etmişlər. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsinə ziyarət olunaraq, önünə çiçəklər düzülmüşdür. Zona tədbirinin Ulu Öndərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib, Azərbaycan dövlət himni səsləndirilmişdir. Tədbiri YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Azərbaycanın XX əsrin axırlarında düşdüyü çətin dövrünə Ulu Öndərin hakimiyyətə gəlişindən sonrakı dövrləri təhlil edərək, tədbir iştirakçılarının diqqətini çatdırmışdır. Natiq qurtuluşdan keçən 25 il ərzində ölkəmizin inkişafından, tərəqqisindən, beynəlxalq nüfuzundan və digər sahələrdən danışaraq, bu dövrlərdə Ulu Öndərin siyasi kursunu uğurla həyata keçirdiyi bir daha tədbir iştirakçılarının nəzərinə çatdıraraq, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizin günügündən inkişafına nail olur, insanların həyat və rifah halının ilbəil artdığını qeyd etdi.

Tərbirdə 700 bal toplayan Xaçmaz şəhər 8 saylı məktəbin şagirdi Jalə Rəcəbova, YAP Xaçmaz rayon təşkilatının gənclər birliyinin üzvü Vəfa Məmmədova, YAP Quba rayon təşkilatının gənclər birliyinin sədri Habil Bayramlı, YAP Qusar rayon təşkilatının gənclər birliyinin üzvü Nəzrin Aslan, YAP Şabran rayon təşkilatının gənclər birliyinin üzvü Mərdan Qasımov, YAP Siyəzən rayon təşkilatının gənclər birliyinin üzvü Bəxtiyar Seyidov, YAP Xızı rayon təşkilatının gənclər birliyinin sədri İman Ağayev çıxış edərək, xalqın çağırışı ilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə əldə olunan iqtisadi, siyasi, hərbi uğurlardan danışıb və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər. Tədbirdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək gəncləri Milli Qurtuluş Günü münasibətilə təbrik edərək, son 25 il ərzində aparılan düzgün və məqsədyönlü siyasət nəticəsində ölkəmizin əldə etdiyi nailiyyətlərindən, Yeni Azərbaycan Partiyasının gördüyü işlərdən gənclərə geniş məlumat vermişdir.

Tərbirdə YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov iştirak etmişdir. Tədbirin sonunda Heydər Əliyev Mərkəzi qarşısında xatirə şəkli çəkildi.

***Rəfiqə***

# Azərbaycan Gürcüstan iqtisadiyyatına 51 milyon dollar investisiya yatırıb



Bu ilin birinci rübündə Azərbaycan Gürcüstan iqtisadiyyatına 51 milyon dollar həcmində investisiya qoyub. AZƏRTAC Gürcüstan saytlarına istinadla xəbər verir ki, hesabat dövründə investisiyaların həcminə görə Azərbaycan Gürcüstanın ikinci ən böyük investoru olub. Gürcüstan iqtisadiyyatına ən çox investisiya yatıran ölkə Böyük Britaniya (82,7 milyon dollar) olub. Ölkənin üçüncü ən böyük investoru isə Çindir (41,6 milyon dollar).

Birinci rübdə Gürcüstana ümumilikdə 279,3 milyon dollar həcmində investisiya qoyulub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 32,9 faiz azdır. Ən böyük investisiyalar maliyyə, tikinti və istehsal sahələrinə yatırılıb.

# Qurtuluşdan başlayan tərəqqi və yüksəliş sonrakı dövrdə Azərbaycanın müstəqil dövlət kimi sürətli inkişafını təmin etdi



*Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, MM-in İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi*

**- Siyavuş müəllim, bəllidir ki, müasir müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə asan yolla çatmayıb. 1991-ci ildə müstəqillik əldə etdikdən sonra çoxsaylı siyasi, iqtisadi, sosial və digər problemlərlə qarşı-qarşıya qalan Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqiyə yoluna qədəm qoyması məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. İstərdik, əvvəlcə müstəqilliyin ilk illərində ölkəmizdəki vəziyyətdən və 15 İyun - Milli Qurtuluş Gününün dövlətçilik tariximizdəki əhəmiyyətindən bəhs edəsiniz...**

- Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, əsl müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən başlıca amil məhz lider faktoru olmuşdur. Məhz bu lider dahi şəxsiyyət, Ulu öndər Heydər Əliyev olmuşdur. İctimai-siyasi sabitliyin təmin edilməsi və qorunmasının, iqtisadi tərəqqinin və milli inkişafın təməlində Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Sevindirici haldır ki, Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

Bilirsiniz ki, 1991-ci ilin oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan etməsinə baxmayaraq, müstəqilliyi itirmək təhlükəsi ilə qarşı-qarşıya idi. Ordu və dövlət quruculuğu istiqamətində hər hansı bir əhəmiyyətli addımlar atılmırdı, daxili çəkişmələr nəticəsində Azərbaycan vətəndaş müharibəsi astanasında idi, separatizm baş qaldırmışdı, bədxah qonşularımızın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkar siyasəti davam edirdi. Bu dövrdə bir sıra ərazilərimiz işğal olundu, Xocalı soyqırımı törədildi. Həmin dövrdə daxildəki bəzi qüvvələr hakimiyyətə gəlmək üçün müxəlif xarici kəşfiyyat orqanları ilə işbirliyi edərək ölkəmizin müstəqilliyinə qarşı çıxırdılar. Siyasi partiyaların silahlı dəstələrə malik olması, ayrı-ayrı kriminal dəstələrin yaradılması, ictimai-siyasi sabitliyin olmaması Azərbaycanı süqutun astanasına gətirib çıxarmışdı. Yəni həmin dövrdə Azərbaycan olduqca çətin vəziyyətdə idi və çoxsaylı iqtisadi, siyasi problemlərlə qarşı-qarşıya idi. Milli maraqlardan uzaq mövqe tutan səriştəsiz insanların hakimiyyətdə olması həm ölkə daxilində hərc-mərcliyin, xaosun, ciddi böhran və tənəzzül meyillərinin yaranmasına səbəb olmuşdu, həm də erməni təcavüzü ilə üzləşən Azərbaycan çarəsiz vəziyyətdə qalmışdı. Ayrı-ayrı siyasi partiyalar isə ölkənin milli maraqlarını, təhlükəsizliyini qorumaq əvəzinə, öz məhdud maraqları uğrunda mübarizə aparırdı. Silahlı dəstələrə malik olan belə partiyaları məhz hakimiyyət uğrunda mübarizə maraqlandırırdı.

Həmin dövrdə Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən xilas edəcək, ölkəni tərəqqi yoluna çıxaracaq yeganə lider -şəxsiyyət məhz Heydər Əliyev idi. Azərbaycan xalqı məhz zəngin dövlətçilik təcrübəsinə malik olan dahi şəxsiyyətə - Ümummilli lider Heydər Əliyevə ümid bəsləyirdi. Bu dövrdə - Azərbaycanın olduqca mürəkkəb şəraitdə olduğu zaman Naxçıvan da olduqca çətin vəziyyətdə idi. 1991-ci ilin sentyabr ayında Ulu öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin Sədri seçilməsindən sonra sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin Sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Eyni zamanda, muxtar respublikada dövlət rəmzləri bərpa edildi, 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Belə bir şəraitdə Azərbaycanın vətənpərvər ziyalıları Ulu öndər Heydər Əliyevin ölkəmizi xaos və anarxiyadan xilas edəcəyini düşünür, Ona sonsuz inam mövcud idi. Təsadüfi deyil ki, 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı Ulu öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. İnsanlar böyük dövlətçilik təcrübəsinə, xarizmaya malik olan güclü Lider ətrafında yaranan Yeni Azərbaycan Partiyasına üz tutmağa başladılar. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqilliyimizin möhkəmləndirilməsinə, milli inkişafın təmin olunmasına xidmət edən fəaliyyətini davam etdirdi və bunun nəticəsində Azərbaycan tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoydu.

Həmin dövrdə AXC-"Müsavat" cütlüyü Azərbaycanı, sözün əsl mənasında, ayrı-ayrı xarici qüvvələrin "döyüş meydanı"na çevirmiş, ölkədə xaos və anarxiya idarəolunmaz həddə çatmışdı. Belə şəraitdə ölkədə separatizm meyilləri baş qaldırmağa başladı. Artıq ölkənin bir sıra ərazilərində - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda qanunsuz silahlı birliklər bölücü iddialarla çıxış edərək mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. Məhz 1993-cü ilin 4 iyun hadisələri də belə bir şəraitdə baş verdi. Beləliklə, Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında idi. Belə bir situasiyada xalqımız 1993-cü ildə parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Beləliklə, iyunun 9-da Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Böyük xilaskarın Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Azərbaycanda davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub saxlamaq etdirmək idi və bu, Ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi. Ulu öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək niyyətlərinin puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

**- Azərbaycanı xaos və tənəzzüldən xilas edən Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi yadda qaldı. Bu barədə nə deyə bilərsiniz?**

- 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin xalqın böyük etimadı və dəstəyi əsasında müstəqil Azərbaycan dövlətinin Prezidenti seçilməsindən sonra ölkəmizin inkişafının əsası qoyuldu, Azərbaycan sabitlik adasına çevrildi, vətəndaş həmrəyliyi yaradıldı və dünya birliyinə uğurla inteqrasiya etdi. Bir məqamı da xüsusi qeyd etməliyik ki, malik olduğu təbii resurslardan səmərəli istifadə etmək, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmək, ən əsası, birgə səylər, qarşılıqlı təcrübə mübadiləsi sayəsində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün 1994-cü ilin 20 sentyabrında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi" imzalandı. Bununla Azərbaycan öz iqtisadi imkanlarını dünyaya təqdim edərək növbəti sazişlərin imzalanmasına zəmin yaratdı.

Ölkəmizin beynəlxalq əlaqələri genişləndirildi və ən əsası düzgün qurulmayan xarici siyasətin uğursuz nəticələri aradan qaldırıldı. Bilirsiniz ki, müstəqillik əldə etdikdən sonra uğursuz və yanlış xarici siyasət nəticəsində Azərbaycan həm region dövlətləri ilə, həm də BMT-nin Təhlükəsizlik Şurasının üzv dövlətləri ilə normal münasibətlərə malik deyildi, müəyyən gərginliklər var idi. Ümummilli lider Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində bu münasibətlər normallaşdı, Azərbaycan geniş beynəlxalq əlaqələrə malik oldu.

Bir sözlə, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdışı ilə dövlətçilik tariximizin yeni mərhələsinin əsası qoyuldu. Ulu öndər Heydər Əliyev müstəqil, iqtisadi cəhətdən qüdrətli, dünya birliyinin layiqli üzvü olan Azərbaycanı yaratmaqla xalqla hər zaman bir olduğunu, Vətənini, torpağını canından çox sevdiyini bir daha nümayiş etdirdi. 1993-cü ilin 3 oktyabrında prezident seçkilərində yüksək etimad qazanan və 11 oktyabr 1998-ci ildə qələbəsini yenidən təsdiqləyən Ümummilli lider Heydər Əliyev bu dövr ərzində Azərbaycan xalqının maraqlarını əks etdirən tədbirlər reallaşdırdı, ölkənin strateji inkişaf istiqamətlərini müəyyənləşdirdi. Prezidentliyinin ilk mərhələsində həyata keçirdiyi islahatlar, böhran içində olan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində reallaşdırdığı genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını artırmaqla ölkəmizin dünya birliyinə açılan yoluna "yaşıl işıq" yandırdı.

Bütün bu nailiyyətlər öz ifadəsini müəllifi Heydər Əliyev olan, 1995-ci ilin 12 noyabrında referendum yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında tapdı. Bu ali hüquqi sənəd nəinki ölkəmizin insan hüquqları, liberal iqtisadiyyat, dövlət idarəçiliyi prinsipləri sahəsindəki uğurlarını təsbit etdi və möhkəmləndirdi, həmçinin gələcək inkişaf istiqamətləri üçün mükəmməl normativ baza oldu. Ulu öndər Heydər Əliyevin irəli sürdüyü dövlətçilik prinsiplərinin əsasında konseptual və dünya siyasətinə uyğunlaşdırılan balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, bazar iqtisadiyyatı yolunu seçməklə malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyi və rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə olunması, insan hüquq və azadlıqlarının qorunması kimi strateji əhəmiyyətli vəzifələr dayanırdı. Bu gün qürur hissi ilə deyə bilərik ki, bu vəzifələrin öhdəsindən layiqincə gəlinmişdir.

Nəticə etibarilə, 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi yadda qaldı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Azərbaycanın yeni zirvələr fəth etməsini, müstəqil dövlət kimi beynəlxalq münasibətlər sistemində uğurla təmsil olun-

masını, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən güclü və qüdrətli ölkəyə çevrilməsini təmin etdi.

**- Sirr deyil ki, bu gün müstəqil Azərbaycan məhz Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə görülən işlər və əldə edilən nailiyyətlərlə bağlı nə deyə bilərsiniz?**

- Sevindirici haldır ki, Ümummilli lider Heydər Əliyevin uğurlu inkişaf siyasəti Onun layiqli varisi olan Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində modernləşmə və islahatlar xətti davam etdirilib, dərin konseptual əsaslara söykənən və bütün sahələri əhatə edən proqramlar uğurla icra olunub. Xüsusilə də, müvafiq Dövlət proqramlarının uğurla icra edilməsi sayəsində ölkənin bütün regionlarının siması dəyişib. İndiyədək respublikamızda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da böyük müvəffəqiyyətlə yerinə yetirilir.

Təsadüfi deyil ki, 15 il ərzində Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirib, Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda 35-ci pillədə qərarlaşıb və MDB məkanında liderliyini qoruyub saxlayıb. Azərbaycan dünyada ən çox islahat aparan qabaqcıl ölkələrdən biri kimi tanınıb. Ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olub.

Digər tərəfdən, ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin məntiqi nəticəsi kimi, Azərbaycan dünyada islahatçı dövlət və sabitlik adası kimi tanınır. Ölkəmizdə etibarlı təhlükəsizlik mühiti formalaşdırılıb. Buna paralel olaraq demokratik islahatlar davam etdirilib, insan hüquqları və azadlıqların təmin olunması diqqət mərkəzində olub. Bunun nəticəsi kimi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində də mühüm nəticələr əldə olunub. İslahatlar həmçinin idarəetmə sahəsini də əhatə edib. Konstitusion və institusional islahatlar idarəetmədə yeni keyfiyyət mərhələsi yaradıb. Respublikamızda yeni vitse-prezidentlik institutu yaradılıb, vətəndaşlara dövlət diqqəti və qayğısı gücləndirilib.

Bir sözlə, Azərbaycan bu gün müasirləşən, sürətlə inkişaf edən, ictimai-siyasi sabitliyin mövcud olduğu bir ölkəyə çevrilib. Bunun nəticəsi kimi, ölkəmizdə möhkəm əsaslara söykənən xalq-iqtidar birliyi mövcuddur və xalq öz Prezidentinə mütləq inam və etimad bəsləyir.

**- Siyavuş müəllim, yeri gəlmişkən, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət kursunun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib, ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır...**

- Səmərəli xarici siyasət həyata keçirən, dünyada etibarlı tərəfdaş kimi tanınan, regional əməkdaşlıq və təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin təşəbbüskarı və müəllifi olan Azərbaycan yüksək beynəlxalq nüfuza malikdir. Ölkəmiz həm regional, həm də beynəlxalq miqyasda dövlətlərlə qarşılıqlı faydalı münasibətlər, bərabərhüquqlu əlaqələr yaradıb. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edib. Hazırda ölkəmiz ikitərəfli və çoxtərəfli münasibətləri öz maraqları əsasında uğurla davam və inkişaf etdirir. Bunun da əsasında Ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi dayanır.

Bu gün Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır. Ölkəmizdə çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilir. Azərbaycan sivilizasiyalararası dialoqa mühüm töhfələr verən tədbirlərə uğurla ev sahibliyi edir və dünyanın multikulturalizm mərkəzlərindən biri sayılır. Bütün bunlar uğurlu və hərtərəfli inkişaf siyasətinin səmərəli nəticələridir.

Bundan başqa, ötən müddət ərzində Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli mövqe nümayiş etdirib, hücum diplomatiyası uğurla davam etdirilib. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər müxtəlif beynəlxalq tribunalardan dünya ictimaiyyətinə çatdırılıb, İƏT-ə üzv olan ölkələr Ermənistanı işğalçı ölkə kimi tanıyıb, Avropa Şurası, ATƏT və digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul edib, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası uğurla davam etdirilib, bir çox ölkələr Xocalı soyqırımını tanıyıb. Yeni Azərbaycanın Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində mövqeyi möhkəmlənib, hərbi, siyasi və diplomatik üstünlüyü təmin olunub. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan istənilən halda işğal altında olan torpaqları azad edərək öz ərazi bütövlüyünü təmin edəcək. Nəticə etibarilə, Azərbaycanın xarici siyasəti həyata keçirilən səmərəli daxili siyasətə uyğundur, bu kursu tamamlayır. Azərbaycan heç bir beynəlxalq qurumdan, milli dövlətdən asılı olmayan müstəqil siyasət kursuna malikdir. Bunun nəticəsidir ki, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir, Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri yaranır.

# Milli Qurtuluş Günü dövlətçilik tariximizə şərəfli və qürurverici səhifə kimi daxil olub

İyunun 13-də Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı, Səbail Rayon İcra Hakimiyyəti və Beynəlxalq Muğam Mərkəzinin təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Milli Qurtuluş Gününə gedən yoldan bəhs edən videoçarx nümayiş etdirilib.






Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq Artisti Murad Hüseynov çıxışında Milli Qurtuluş Gününün hər bir azərbaycanlı üçün əziz olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan bugünkü uğurlara məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində nail olub. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu fəaliyyətləri nəticəsində ölkəmiz bu gün bütün dünyada tanınır.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev 1993-cü il iyunun 15-dən ötən dövrdə Azərbaycanın keçdiyi inkişaf yolundan, əldə olunan uğurlardan danışıb. O, 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışını şərtləndirən obyektiv və subyektiv faktorları və həmin dövrdə baş verən mürəkkəb prosesləri xronoloji ardıcıllıqla təhlil edib. Ş.Hacıyev yaranmış ağır vəziyyətdə xalqın təkidli tələbi ilə Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsinin Azərbaycanın həm siyasi, həm iqtisadi, həm də sosial-mədəni qurtuluşunun əsasını qoyduğunu bildirib. Müstəqil inkişaf tariximizin məhz 15 iyun tarixindən başladığını vurğulayan deputat qeyd edib ki, güclü strateq, görkəmli siyasi xadim və cəsarətli rəhbər olan ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Milli Qurtuluş Günündən başlayan inkişaf yolumuz 2003-cü ildən yeni liderin rəhbərliyi ilə yeni yüksəliş mərhələsinə qədəm qoydu. Məhz Prezident İlham Əliyevin müstəqil, cəsarətli və düşünülmüş siyasəti nəticəsində Azərbaycan bu gün dünya miqyasında öz mövqeyi və rolu olan, beynəlxalq əmək bölgüsündə öz layiqli yerini tutan, dünya gəlirlərindən pay alan, ən nəhəng transkontinental layihələri reallaşdıran, bu coğrafiya və bütün dünya üçün önəmli strateji tərəfdaş və iqtisadi aktordur.

Vurğulanıb ki, Azərbaycanda bu gün Heydər Əliyevin əbədiyaşar ideyaları və siyasəti uğurla davam edir, dünyada gedən proseslər nəzərə alınmaqla keyfiyyətcə təkmilləşdirilir. Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP boru kəmərinin istifadəyə verilməsi, Cənub Qaz Dəhlizinin açılışı kimi möhtəşəm tədbirlər Prezident İlham Əliyevin siyasi təntənəsi olmaqla yanaşı, Azərbaycanın region və dünya üçün geoiqtisadi əhəmiyyətini daha da artırır. Əminik ki, Heydər Əliyev və İlham Əliyev siyasəti gələcəkdə Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq və ən ağrılı problemimiz olan ərazi bütövlüyümüz Ali Baş Komandanımızın müdrik rəhbərliyi ilə tezliklə bərpa ediləcək.

Tədbirdə çıxış edən Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, deputat Aydın Mirzəzadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev dövlətçilik tariximizə şərəfli və qürurverici səhifə kimi daxil olmuş 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıblar. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycan yeni bir mərhələyə daxil oldu. Ulu öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində ölkəmizdə mövcud olan gərgin ictimai-siyasi böhran aradan qaldırıldı, sabitlik və iqtisadi inkişaf təmin edildi. Böyük dövlət xadimi Heydər Əliyevin ictimai, siyasi, iqtisadi və mədəni həyatımızla bağlı ideyaları artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Ulu Öndərin müəyyən etdiyi müdrik siyasi kurs və strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz sürətlə inkişaf edir. Tədbir bədii hissə ilə davam edib.

# Çirkli qrantlarla "qidalanan" "Media klubu"...

***XX əsrin ortalarından sonra Qərbin "müstəmləkəçilik siyasətində" yeni "işartılar" meydana gəldi. Artıq "qanlı müharibələr" dövrü sona çatmışdı. Sözsüz ki, metod dəyişsə də, mahiyyət elə eyni olaraq qalırdı. Kiçik dövlətləri təsir altında saxlamaq, öz maraqlarını diqtə etmək və yönləndirmək yenə də əsas hədəf olaraq qalırdı. Bu zaman isə yeni "vasitələrdən" istifadə etmək, "müstəmləkəçilik siyasətinə" humanizm donu geyindirmək lazim idi. Artıq Qərbdə "demokratiya", "insan hüquq və azadlıqları", "ədalət meyarları" və s. buna bənzər adı var, özü yox olan anlayışlar meydana gəlməyə başladı. Dey-ure müstəqil, de-fakto isə Qərbin təsiri altına düşən ölkələrin sayı artmaqda idi. Bununla yanaşı, dünyaya hökmranlıq etmək istəyən "demokratiya carçıları" birbaşa deyil, müxtəlif qeyri-hökumət təşkilatları, fondlar və s. qurumlar vasitəsilə öz qaranlıq niyyətlərini həyata keçirməyə başladılar.***



**Vüqar Rəhimzadə,
"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist**

Qərbin işğalçı siyasətinə direniş göstərməyə çalışan ölkələrə isə zaman-zaman beynəlxalq QHT-ləri əli ilə "demokratiya", "insan hüquq və azadlıqları" pərdəsi altında təzyiq edilirdi. Qeyd etdiyimiz bəzi fondlar bu ölkələrdə formalaşdırılan "beşinci kolon"u çirkli qrantlarla qidalandıraraq qarışıqlıq salmağa, öz qaranlıq niyyətlərini həyata keçirməyə cəhd edirdilər. Corc Sorosun "xeyriyyəçilik" missiyası əsasında 1979-cu ildə təsis edilmiş Açıq Cəmiyyət İnstitutu artıq illərdir ki, "beşinci kolon"un əsas maliyyə "mənbələrindən" biri rolunda çıxış edir. Təəssüf ki, bu siyasət bu gün də davam edir.

Bu il 100 illik demokratik dövlətçilik tarixini qeyd edən, dünya miqyasında böyük nüfuz sahibi olan, müstəqil siyasət yürüdən Azərbaycana, onun uğurlarına Qərbin bəzi ermənipərəst dairələri, eyni zamanda Soros fondu qısqanclıqla yanaşır. Ölkəmizdə formalaşdırdıqları "beşinci kolon"a mütəmadi olaraq maliyyə yardımları ayıran bu "qüvvələr" zaman-zaman qarışıqlıq salmağa, öz "niyyətlərini" həyata keçirməyə çalışıblar. Ancaq öz istəklərinə nail ola bilməyiblər. Bu kontekstdən çıxış edərək diqqəti bir sıra məsələlərə yönəltmək istəyirəm.

Bu günlərdə yeni yaradılan "Media klubu" adlanan "ictimai qurum" guya ölkədə internet mediasının problemlərini müzakirə edib. Əvvəlcə qeyd edim ki, qurumun məqsədi guya müstəqil, sağlam media məkanının yaradılması, KİV-in təhqir və yalan sisteminə çevrilməsi cəhdlərinin qarşısını almaq istiqamətində hansısa "səylərin" birləşdirilməsidir. Çox gözəl, hətta əla təşəbbüs kimi görünür. Lakin burada bir əmma var... "Media klubu"nda təmsil olunanlara diqqət yetirdikdə bu niyyətin nə dərəcədə səmimi və dürüst olması insanda böyük şübhələr yaradır və suallar doğurur. Arif Əliyev, Mehman Əliyev, Rövşən Hacıbəyli, Əvəz Zeynallı, Elmdar Əliyev və başqaları hansı sağlam media məkanından danışa bilərlər? Onların buna nə dərəcədə mənəvi haqqları çatır? Hesab edirəm ki, bu şəxslərin bir araya toplaşıb hansısa yaxşı niyyət və əməl sahibi olacaqlarını düşünmək yersizdir. Çox güman ki, yenə milli, dövlətçilik maraqlarımıza zərbə vurmaq, ermənipərəst dairələrin verdikləri "sifarişlər" əsas müzakirə mövzusu olub.

Götürək Mehman Əliyevi. Ölkədə "media komissarı" olmaq iddiasına düşən Mehman Əliyevi "qrant dəllalı" adlandırsaq daha yaxşı olar. Yazının əvvəlində Qərbin bəzi fondlarının, o cümlədən Soros fondunun əsas məqsəd və məramları ilə bağlı kiçik bir xatırlatma etdim. Hər kəs də Sorosun hansı məqsədlərə xidmət etdiyini yaxşı bilir. İndi siz deyin, Soros fondunun yerli bürosunun rəhbəri olan Mehman Əliyev hansı milli maraqlardan, sağlam media məkanından danışa bilər? Bu şəxs özü qeyd edib ki, 2000-2010-cu illərdə ölkə mediasına 150 milyondan çox qrant ayırılıb. "Sorosun" qrantlarını bölüşdürən Mehman Əliyev təbii ki, vəsaitin çox hissəsini mənimsəyib, qalanını isə özü kimi əyri əqidəli insanlara paylayıb. İndi Mehman Əliyevə sual versək, 150 milyonun hesabını verə bilərmi? Görəsən hara xərclənib bu pullar? Varlığı ilə yoxluğu bilinməyən "Turan" agentliyinə, ya şəxsi məqsədlərə? Bəlkə Sorosun çirkli planlarının həyata keçirilməsinə? Hər halda Mehman Əliyev nə xərclənən pulları tapa biləcək, nə də bu suala cavabı.

Hələ sizə nədən deyim, nədən danışım... "Milli maraqların müdafiəçisi" olan Mehman Əliyev bir vaxtlar Rusiya Prezidentinə məktub yazmışdı ki, prezident seçkilərində Rüstəm İbrahimbəyovun namizədliyinin qeydə alınması üçün Azərbaycana təzyiq göstərilsin. O, Rüstəm İbrahimbəyov ki, "Qafqaz üçlüyü" filmi ilə əsl "simasını" bir daha nümayiş etdirdi. Milli maraqları satan İbrahimbəyov bu günlərdə ölkə ictimaiyyətinin şiddətli qınağına tuş gəldi. Satqın, xain "kinoçu" xalqımızı qaniçən, erməniləri isə məzlum kimi qələmə verməyə çalışıb. İndi görün Mehman Əliyev kimi müdafiə edib: içində ermənilərə sevgi bəsləyən, xalq düşməni İbrahimbəyovu. Artıq bu fakt hər şeydən xəbər verir. Mehman Əliyevin də antimilli dairələrin əlində bir "vasitəyə" çevrildiyi artıq heç kəsdə şübhə doğurmur. Satqın İbrahimbəyovu müdafiə edən də elə onunla eyni "düşüncədə", "əqidədə" olan biridir. Mehman Əliyev son günlər sadaladığımız qaranlıq əməllərinin üstünü örtmək üçün ağzına gələni danışır. Ancaq çabaladıqca daha dərinə batır...

"Media klubu"nun digər bir üzvü "Yeni nəsil" Jurnalistlər Birliyinin rəhbəri Arif Əliyev də Rüstəm İbrahimbəyovu müdafiə edənlərdən biri olub. Təsadüfi deyil ki, 2010-cu ildə "Yeni nəsil" Jurnalistlər Birliyi İbrahimbəyovu "İlin media adamı" mükafatına layiq görüb. Bu da Arif Əliyevin hansı "əqidənin" sahibi olduğunu nümayiş etdirir. Arif Əliyev də əsas "qrantyeyənlərdən" biri kimi tanınır. Bir vaxtlar "Gün səhər" qəzetini çıxaran Arif Əliyevin bu layihəsi nədənsə tez "dəfn" olundu. Layihəyə ayrılan böyük qrantlar hara getdi görəsən? Yenə də suallar cavabsız qalır. Heç bir yeniliyə aidiyyəti olmayan "Yeni nəsil" Jurnalistlər Birliyinin və rəhbəri Arif Əliyevin haradan "qidalandığı" onun əsl kimliyini və "niyyətini" ortaya qoyur.

"Reket jurnalistika"nın əsas "simalarından" biri olan Əvəz Zeynallının da "Media klubu"nda təmsil olunması heç də təəccüblü deyil. Görəsən Zeynallı hansı sağlam mediadan danışa bilər? O deyildi jurnalistlərə mənzillər veriləndə saxta siyahı quraşdırıb ortaya düşən, dövlətin bu cür xeyirxah layihəsinə kölgə salmağa çalışan? O vaxt "dövlət jurnalistə niyə ev verməlidir" kimi mənasız, gülünc çağırışlar edən bu müəccim atılıb ortaya düşmüşdü ki, bəs filan jurnalistlərin ev almağa haqqı var. Zeynallının keçirdiyi "sorğunun" nəticələrində böyük əksəriyyəti jurnalistikaya aidiyyəti olmayan, daim informasiya təxribatı törətməyə cəhd edən "jurnalistlərin", sosial şəbəkə trollarının adları əks olunub.

Keçək "Media klubu"nun digər üzvü Rövşən Hacıbəyliyə. Məlum olduğu kimi, Hacıbəyli "Azadlıq" qəzetinin baş redaktor əvəzi idi. O "Azadlıq" ki, səhifələrini təhqir, yalan, böhtan dolu yazılarla doldururdu. "Etibarlı mənbə" adı altında qaranlıq mənbələrdən qrantlar alaraq milli maraqları baltalayırdı. "Azadlıq" jurnalistikanın bütün prinsiplərini pozaraq "maraqlı dairələrin" sifarişlərini yerinə yetirirdi. İndi Rövşən Hacıbəyli hansı sağlam mediadan danışa bilər? Onun buna nə dərəcədə mənəvi haqqı çatır?

Sözsüz ki, "Media klubu"nda təmsil olunan, adlarını çəkmədiyimiz digər şəxslər də eyni "əqidədə" olan insanlardır. Biz sözlə, "Media klubu"nda bir araya gələn "media işbazları" mövsümə uyğun olaraq "aktivləşiblər." Biz zaman-zaman onların bu cür "açıqlamalarının", "fəaliyyətlərinin" şahidi olmuşuq. Görünür, bunlar antimilli dairələrdən yeni "sifarişlər" alıblar və onun icrası ilə məşğuldurlar. Ancaq əbəs yerə. "Media işbazları"nın bundan sonrakı işi yalnız qrant dilənməklə başlarını qatmaq olacaq. Azərbaycan cəmiyyətində və mətbuatında belələrinə qarşı güclü antipatiya formalaşıb. Bunlar nə əsl jurnalist, nə də əsl vətəndaş ola bildilər. Təbii ki, milli kimliyi olmayanların əsl vətəndaş olmaq ehtimalları sıfıra bərabərdir. Bunlar isə sıfırdan fərqli olaraq nəinki təklikdə, heç nəyinsə arxasına qoşulduqda belə hansısa mahiyyət kəsb etmirlər.

## Bəhruz Quliyev: "Azadlıq" qəzeti "şantaj yuvası"dır



***"Azadlıq" qəzeti heç bir nüfuzu olmayan beynəlxalq təşkilatlardan daha birinin növbəti saxta hesabatını dərc edib. Hesabatda iddia olunur ki, guya ölkə rəhbərliyində təmsil olunan məmurlar və onların ailə üzvləri dövlət sərvətlərini Dubaya daşıyırlar.***

Vaxtaşırı olaraq Azərbaycana qarşı qarayaxma kampaniyası aparan bəzi beynəlxalq təşkilatların Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP-ın istismara verildiyi günlərdə belə bir hesabatla çıxış etməsi heç şübhəsiz təsadüfi deyil. AZXEBER.COM məsələyə "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevin münasibətini öyrənib. Bəhruz Quliyevin sözlərinə görə, "Azadlıq" qəzeti "şantaj yuvası"dır və onlardan hər şey gözləmək olar: "Araşdıranda ki, bunu hansı beynəlxalq təşkilat yayıb, məlum olur ki, həmin təşkilatı heç Avropanın özündə də tanıyan yoxdur. İndi durub demək ki, ölkəmizin sərvətləri talanır və xaricə daşınır, bu iddia yalnız ləyaqətsiz adamların işi ola bilər. Bilirsiniz ki, bütün dünyanın diqqəti bizim regiondadır. Azərbaycanın əsas rol aldığı Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP istismara verilib. Ölkəmiz regionun lider dövlətinə çevrilib. Müəyyən dairələr Azərbaycanın uğurlarına dözə bilmirlər. Keçiblər şər-böhtana, ağızlarına gələni danışır, yayırlar. Onların özləri kimdir ki, hesabatları nə olsun?! El arasında gözəl misal var: İt hürər, karvan keçər".

## Ekspert: TANAP Azərbaycan üçün gəlirliliyin təmin edilməsi baxımından çox vacibdir



Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) Azərbaycan üçün gəlirliliyin təmin edilməsi baxımından çox vacibdir. TANAP-ın istifadəyə verilməsi Azərbaycanın daha çox gəlir əldə edə bilməsinə imkan verəcək. Bu fikirləri AZƏRTAC-a iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

Ekspert bildirib ki, TANAP kəməri Cənub Qaz Dəhlizinin əsas elementlərindən biridir. Azərbaycan mavi qazı Cənubi Qaz Dəhlizi çərçivəsində TANAP vasitəsilə Türkiyə bazarlarına çıxarılacaq. Həmçinin TANAP TAP üçün mavi qazın nəqlini həyata keçirir, daha sonra mavi qaz TANAP-dan TAP-a ötürüləcək. Bu, imkan verəcək ki, Azərbaycan birinci mərhələdə 16 milyard kubmetr mavi qazı, o cümlədən 6 milyard kubmetr qazı Türkiyə bazarına, 10 milyard kubmetr qazı Avropa bazarlarına nəql etsin. Sonrakı mərhələdə Avropa bazarlarına 20 milyard kubmetr mavi qaz nəql ediləcək. Bütövlükdə, TANAP-ın ötürmə qabiliyyəti 31 milyard kubmetrə qədər artırılacaq ki, onun da əhəmiyyətli hissəsi məhz Avropanın payına düşəcək. Bu baxımdan TANAP-ın açılışı Azərbaycan üçün çox önəmlidir. Çünki, bu, Azərbaycanın dövlət gəlirlərinə birbaşa təsir göstərir.

"Azərbaycan TANAP, TAP və bütövlükdə Cənub Qaz Dəhlizinin reallaşmasından 150 milyard dollara yaxın gəlir əldə edəcək. Növbəti 10 il ərzində isə, 2020-ci ildən başlayaraq Azərbaycanın mavi qazın qiymətindən asılı olaraq gəlirinin məhz 30-50 milyard dollar arasında dəyişəcəyi gözlənilir. Bu, Azərbaycan üçün kifayət qədər böyük gəlir mənbəyidir. TANAP Azərbaycan üçün gəlirliliyin təmin edilməsi baxımından çox vacibdir. Bu, Azərbaycanın daha çox gəlir əldə edə bilməsinə imkan verəcək", - deyə V.Bayramov diqqətə çatdırıb.




# DSX 15 İyun Milli Qurtuluş Gününü qürurla qeyd edir!






“15 İyun - Azərbaycan xalqının Milli Qurtuluş Günü”nün 25 illik yubileyi ərəfəsində zəmanəmizin dahi şəxsiyyəti, müasir Azərbaycan dövlətinin qurucusu, Milli Sərhəd Strategiyasının banisi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə sərhədçi ehtiramının bildirilməsi və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi altında xidmət etməkdən qürur hissini ifadə etmək məqsədilə 12 iyun 2018-ci il tarixdə xidmətdə fərqlənmiş bir qrup sərhədçinin Böyük Qafqaz sıra dağlarının Qızılqaya massivində dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən “Heydər Əliyev zirvəsi”nə və Ağstafa rayonunun Keşikçi dağ ərazisində yerləşən “İlham Əliyev zirvəsi”nə Dövlət Sərhəd Xidməti tərəfindən ənənəvi yürüşləri təşkil olunub. Bu barədə DSX-dən daxil olan məlumata görə, Xudat sərhəd dəstəsinin Xınalıq sərhəd zastavasından və Şəmkir sərhəd dəstəsinin Keşikçi dağ sərhəd zastavasından hərəkətə başlayan yürüş iştirakçıları mürəkkəb relyefə malik olan dağlıq əraziləri böyük ruh yüksəkliyi və əzmkarlıqla fəth edərək, təyin olunmuş zirvələrə qalxaraq, orada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmış, Dövlət Himnini ifa etmiş və qayalar üzərinə Azərbaycan xalqının Milli Qurtuluş Günü”nün 25 illik yubileyini tərənnüm edən lövhələr bərkidiblər.

Zirvələrdə nitq ilə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini və böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını, xüsusi olaraq qeyd edərək, yaxın zamanlarda dövlətimizin ərazi bütövlüyünün təmin olunacağına və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə ediblər.



**R.RƏSULOV**



# Milli Qurtuluş Günü xalqımızın şərəf tarixində xüsusi önəm daşıyır



Dünən Xəzər rayon icra hakimiyyətinin və YAP Xəzər rayon təşkilatının birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirildi. Tədbir Ümummilli Lider Heydər Əliyevin, “Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Azərbaycan dövlətinin rəhbəri kimi əminliklə deyə bilərəm ki, bu gün Azərbaycanın müstəqilliyini qorumaq və əbədi saxlamaq mənim öz canımdan qat-qat artıqdır” fikirlərini də əks etdirən filmin nümayişi ilə başladı.



Tədbiri giriş sözü ilə açan Xəzər rayon icra hakimiyyəti başçısının birinci müavini Vaqif Həsənov bildirdi ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması Azərbaycanı olduqca ağır bəlalardan xilas etdi: “Milli Qurtuluş Gününə gedən yol olduqca çətin və ağrılı bir dövrdən keçib. Bu tarix həmin dövr insanlarının yaxşı yadındadır. Azərbaycan hökumətinin başında siyasi idarəçilikdə səriştəsi olmayan yarıtmaz qüvvələr dururdu. Məhz bu baxımdan, ölkədə siyasi vəziyyət gündən-günə pisləşirdi. İnsanlarımız əziyyət çəkir, ölkədə az qala vətəndaş müharibəsi vəziyyəti yaranırdı. İndi gözlərimiz qarşısına həmin günləri gətirəndə bir daha əmin oluruq ki, Ümummilli Lider Heydər Əliyev o gün üçün həll edilməsi mümkün olmayan bir problemi həll edə bilmiş, Azərbaycanı o ağır durumdan xilas etməyi bacarmışdı”.

YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov çıxışında bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin çətinliklə əldə etdiyi, lakin o dövrdə göstərilən təzyiqə tab gətirməyərək, saxlaya bilmədiyi müstəqilliyimizin arada uzun illər keçdikdən sonra yenidən, bu dəfə əbədi qazanılmasının tarixi əhəmiyyətindən danışdı: “Bir əsrdə iki dəfə istiqlaliyyətə qovuşmuş Azərbaycanın müstəqillik taleyi o qədər də ürəkaçan olmadı. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin varlığına bolşevik Rusiyasının işğalı son qoydu, 1991-ci ildə ikinci dəfə azadlığına qovuşmuş ölkəmizi isə təhlükəyə sürükləyən hakimiyyətdəki səriştəsiz insanlar oldu. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün “səriştəsi sayəsində” ictimai həyatın bütün sahələrində xaos və hərc-mərclik baş alıb gedirdi.

Xalqın yeganə ümidi Naxçıvana, Ulu Öndər Heydər Əliyevə idi. Vətənin bu ağır günündə xalq Azərbaycanın görkəmli oğlu Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edərək, iyunun 9-da Bakıya gəldi və qısa vaxt ərzində, Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Məhz Ümummilli Liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu”.

YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə 15 İyun - Milli Qurtuluş Gününün Azərbaycanın tarixində tutduğu önəmli mövqeyindən söz açaraq, diqqətə çatdırdı ki, bu gün Azərbaycanın sürətli inkişafının əsasında, birmənalı olaraq, Ulu Öndər Heydər Əliyev siyasəti dayanır: “Hesab edirəm ki, Milli Qurtuluş Günü Azərbaycan xalqının şərəf tarixində xüsusi önəm daşıyır. Ona görə ki, həmin dövrdə Azərbaycan “Ölüm, ya olum?” dilemması ilə qarşı-qarşıya idi. Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, bütövlükdə Azərbaycanı qorudu, insanlarımızın Vətənlərinə və torpaqlarına olan inamını geri qaytardı. Məhz bundan sonra Azərbaycan müasir və güclü dövlət kimi formalaşmağa başladı. Bu vaxta qədər ölkədə siyasi sabitlik deyil, siyasi anarxiya, iqtisadi inkişaf deyil, iqtisadi tənəzzül dərinləşir, insanlarımız çörəklə sınağa çəkilirdi. 1991-ci il oktyabrın 18-də Azərbaycanda Müsəqillik haqqında Konstitusiya Aktı qəbul olundu. Buna baxmayaraq, ölkədə müstəqilliyin atributlarından söhbət gedə bilməzdi. Təəssüflər olsun ki, o vaxt ölkənin başında duran rəhbərlər yalnız vəzifə uğrunda mübarizə aparır, ölkəni talan etmək, insanların hüquqlarını pozmaqla məşğul idilər. Beləliklə, Azərbaycan dövlətinin məhvi yaxınlaşırdı. Vətəndaşlar yaxşı bilirdilər ki, Azərbaycanı düşdüyü bu çətin və ağır vəziyyətdən yalnız bir insan xilas edə bilər. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən etibarən Azərbaycanda siyasi sabitlik bərqərar olundu. Dahi Öndər Heydər Əliyev qətiyyəti, iradəsi bütün çətinliklərə sinə gərdi və Azərbaycan dövlətini dirçəltdi. Məhz bundan sonra ölkənin qarşısında yeni imkanlar açıldı”.

Həmkarlar İttifaqı Konfederasiyasının Təhsil İşçiləri Həmkarlar İttifaqının Xəzər rayon şöbəsinin sədri Həzərxan Əbilov Ulu Öndərin Azərbaycan tarixindəki əvəzsiz rolundan danışaraq bildirdi ki, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev öz xalqının ən çətin məqamında onun səsinə səs verərək, Azərbaycanın dövlət müstəqilliyinin dönməz və əbədi olmasını təmin etdi.

Tədbirin sonunda Xəzər rayonunun ictimai işlərində fəallıq nümayiş etdirən bir qrup gənc mükafatlandırıldı.

Tədbir bədii hissə ilə davam etdirildi.

# Nikol Paşinyan aldanmağı özünə və ölkəsinə rəva bilir

*Ermənistanda baş verənlərdən sonra hakimiyyət kürsüsündə özünə yer edən Nikol Paşinyan bir-birinin ardınca təzadlı fikirlərlə, əsassız iddialarla diqqəti cəlb edir və məntiqsiz davranışları, hətta ikrah doğurur. Əslində, Ermənistan cəmiyyətində yaranan çaşqınlıqdan istifadə edən və arzusunda olduğu postu ələ keçirən baş nazir indi də cəmiyyətdə çaşqınlıq yaratmağa köklənib. Rusiyanın xarici işlər naziri S.Lavrovla görüşündə Paşinyan Dağlıq Qarabağın adından Azərbaycanla danışıqlar aparmağa hüquqi və mənəvi baxımdan haqqı olmadığını bildirib və əsas kimi də "DQR"-in parlamenti, prezidenti və hökuməti olan müstəqil ölkə" olduğunu bəhanə edib. Maraqlıdır, heç kimin, ələlxüsus da, Azərbaycanın tanımadığı, qəbul etmədiyi parlamenti, prezidenti və hökuməti yalnız özləri, özü də qanunsuz, əsassız şəkildə elan etdikləri halda, hansı müstəqil ölkə statusundan danışmaq olar? Hüquqi və mənəvi haqlardan dəm vuran Paşinyan, həmçinin, Ermənistan hansı haqq və hüquqlarla istədiyi bölgəni müstəqil dövlət elan edir? Dağlıq Qarabağ müstəqil ölkə deyil, ola da bilməz və bu baxımdan, yeni təyin olunmuş baş nazirin "müstəqil ölkə" ifadəsi təkcə Azərbaycan yox, eləcə də, beynəlxalq təşkilatlar, demokratik institutlar və digər dövlətlər tərəfindən belə arqument hesab olunmur.*

### İşğal edilmiş ərazilərin müstəqil dövlət elan edilməsi cəhdi həyasızlığın son həddidir

Ən çox diqqətçəkən məqam həm də ondan ibarətdir ki, demokratiya komuflyajı geyinən Paşinyan, həmçinin, Ermənistanda guya ki, demokratik islahatlar aparmaq qəsdində olan güclər, demokratik yolla yeni baş nazirin təyinatını iddia edən demokratik təşkilatlar bu sayıqlamalara yol verirlər. İradənin əksinə çıxış etmək, qanunsuz yollardan istifadə etmək nə vaxtdan demokratiya olub? Hüquqi əsas olmadan, dünya dövlətləri tərəfindən tanınmadan "DQR"-ə "Artsax" adı qoyub, onu müstəqil ölkə adlandırmaq demokratiyadırmı? İşğal edilmiş ərazilərin müstəqil dövlət elan edilməsi cəhdinin demokratiya ilə hansı uyğunluğu ola bilər? Bu, həyasızlığın son həddidir. Qonşu dövlətin ərazisini hərbi yolla işğal və talan etmək, insanlığa sığmayan vəhşilik və vandallıqla qətllər törətmək, cəsədlər üzərində təhqiramiz hərəkətlərə yol vermək, yerli əhalini məcburi şəkildə, təcavüzlə didərgin salıb, yaşadığı doğma torpaqlarından qovmaq, həmin ərazilərdə nəzarəti güclə ələ keçirmək, yoxsa demokratiyadır? Yaxud bu qədər anti-demokratik ölkə, onun əldəqayırma baş naziri hansı üzlə demokratik prinsipləri bayraq etməyi niyyətindədir? Niyə bu ölkəyə onun, nəinki demokratiyadan çox uzaq olduğu, hətta haqq və hüquqların pozulduğu anti-demokratik dövlət olduğu xatırladılmır? Nəinki özlərinin, hətta bunu xatırlatmayan təşkilatların, beynəlxalq qurumların demokratik olduğuna görəsən, ermənilər, şəxsən Paşinyan özü inanırmı? Ermənistan cəmiyyəti, başda onun baş naziri olmaqla bütün ermənilər işğal faktlarını, qanunsuz hərəkətlərini hamıdan yaxşı bilir və buna görə də təkcə özləri deyil, bütün demokratik institutların, beynəlxalq qurumların və dövlətlərin demokratiyadan alət olaraq istifadə etdiyinə hamıdan çox əmindir. Sadəcə olaraq, ermənilərə, Nikol kimi küçədən gəlib bir anda baş nazir kürsüsünə oturan birinə bu cür əldəqayırma demokratiya və demokratiyadan sui-istifadə xarakterikdir. Məhz buna görə də, Qərb Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün Ermənistanı, erməniləri, ələlxüsus, Paşinyanı seçib. Əvəzində "Böyük Ermənistan" xülyasında olanlara Dağlıq Qarabağ kimi Azərbaycan torpaqlarını əldə edəcəklərinə şirnikləndirib. Dağlıq Qarabağ ermənilər üçün telədə pendir kimi göründüyü zaman, başda Paşinyan olmaqla bütün Ermənistan cəmiyyəti, Qərbin oyuncağına çevrilib. Hadisələrin gedişi və reallığı əks etdirən acı həqiqətlər qarşısında qalan Nikol indi çaşqınlıq içərisindədir. İdarəçilikdən tamamilə uzaq olan bu inqilabçı çiyinlərində daşıya bilmədiyi yükün ağırlığına tab gətirə bilməyəcəyini dərk etdiyi üçün bundan sonra da Qərbin oyunlarına alət olmağı könüllü surətdə qəbul edir və onun, "DQR"-in parlamenti, prezidenti və hökuməti olan müstəqil ölkə" olduğunu iddia edən bəhanəsi, məhz Qərbin növbəti oyununda iştirakı və tapşırığına boyun əyməsidir.

### Paşinyanın çıxışları və iddiaları göstərir ki, onun sülh haqqında iddiaları səmimi deyil və beynəlxalq auditoriyaya hesablanıb

Paşinyan Qərbin oyununda alətdir və ssenarinin Qərb tərəfindən hazırlandığı da göz qabağındadır. Meydandan və küçədən gələn baş nazirin belə bir oyun qurmaq ağlının məhsulu deyil. Təbii ki, münaqişəni uzatmaq, Qafqazda özünə mövqe tutmaq istəyən Qərbin yeni bir hiyləsidir ki, bunu Paşinyan tərəfindən səslendirir. Ermənistanın yeni baş naziri gah ölkəsinin hərbi qüdrətindən danışır, halbuki ordusu səfalət içərisində yaşayan əhalinin maliyyələşməsi ilə, hələ ki, mövcuddur, gah



da sülhün tərəfdarı kimi çıxış edir. Nikol adlı bu Qərb oyuncağının təzadlı fikirləri və iddiaları çox güman ki, nə birinci, nə də sonuncu deyil. Nə qədər ki, bu "aldanmış kəvakib", mütəmadi olaraq, aldanmağı özünə və ölkəsinə rəva bilir bu, belə də davam edəcək. Paşinyanın çıxışları və iddiaları göstərir ki, onun sülh haqqında iddiaları səmimi deyil və beynəlxalq auditoriyaya hesablanıb. Yəni əgər Qərb sülh tapşırığı verərsə, Paşinyan sülh tərəfdarı kimi çıxış edəcək, başqa hansı şəkildə bəyanat verməyi tələb edərsə, o cür də iddialar səsləndirəcək. Artıq beynəlxalq ictimaiyyət Nikolun bir siyasi fiqur deyil, əl oyuncağı olduğunun fərqindədir və bu baxımdan, nə Azərbaycan cəmiyyəti, nə də beynəlxalq aləmdə onun bəyanatları və iddiaları ciddiyə alınmır. Çünki onun hadisələrin, münaqişənin gedişindən tamamilə uzaq biri olduğu da diqqətdən yayınacaq deyil. Serj Sarkisyan kimi onun məlumatı ola bilməz və hər çıxışında, hər bəyanatında da özünü ifşa edir.

Paşinyan danınşıqlar prosesinin real vəziyyəti haqqında da məlumatlı deyil və bunu onun iddiaları tam şəkildə təsdiq edir. Göründüyü kimi, bu mənada da, yeni baş nazir danışıqlar prosesindən xəbəri olmayan, amma bu danışıqları öz istədiyi istiqamətdə aparmaq istəyən qüvvələrin mövqeyindən çıxış edir. Bəzi qüvvələr danışıqların gedişatından xəbəri olmasa da, bölgədə öz istəklərini reallaşdırmağa cəhd etdiyi kimi, Paşinyan da məlumatsız belə ola-ola cəfəng iddialarla çıxış edir və bu da, öz növbəsində, təsdiq edir ki, baş nazir, məhz marionet kimi həmin qüvvələrin maraqlarına xidmət edir. Erməni hiyləgərliyi ilə Qərbin, yaxud Rusiyanın adamı deyil, Ermənistanın adamı olduğunu bəyan edir. Amma diqqət yayındırmaq istədiyi halda, tamam əksinə olaraq, diqqəti özünə cəlb edir, özü-özünü ifşa edir və öz təkzib faktı ilə belə təsdiq edir ki, həqiqətən də, Qərbin adamıdır və onların tapşırıqlarını yerinə yetirir.

### Paşinyanın bəyanatları inqilab dalğasında hakimiyyətə gəlmiş birinin daxili auditoriya qarşısında simasını itirməmək məqsədi daşıyır

Küçələrdə bel çantası ilə qaraqışqırıq salan Paşinyanın kütlə qarşısındakı pafoslarının ardınca, indi reallığı başa düşsə də belə, birdən-birə sözünü, mövqeyini dəyişməsi onun özü üçün də çətindir. Əks halda, yeni baş nazir bir vaxt küçə yürüşlərindəki pafoslu çıxışlarına zidd mövqe sərgiləsə, idarəolunmaz kütlə onun özünü də dərhal yerindən oynadar və hələ də sönməmiş inqilabın qığılcımı Ermənistanı tamamilə yaxıb-yandırar. Bu isə, nəinki Paşinyanın, hətta Ermənistanın özünün də birdəfəlik süqutu, hətta ani olaraq məhvi deməkdir. Məhz buna görə də, cəsarətlə demək olar ki, Paşinyanın bəyanatları inqilab dalğasında hakimiyyətə gəlmiş birisinin daxili auditoriyanın qarşısında simasını itirməmək məqsədi daşıyır. İqtisadi vəziyyəti, sosial durumu acınacaqlı halda, büdcəsi yox dərəcəsində olan, hərbisində qarışıqlıq, xaos hökm sürən, beynəlxalq aləmdə nüfuzunu tamamilə itirən, ictimaiyyəti nəzarətdən, idarəetmədən çıxan, xarici təsir altında qalan bir ölkənin də, onun baş nazirinin də taleyi onsuz da tükdən asılı bir vəziyyətdədir. Məhz buna görə də, Paşinyan növbəti dəfə hiyləgərliklə daxili auditoriyanın nəbzini tutmağa çalışır. Amma divardan tutub yeriyəcəyinə ümid edən kor misalında bu hiyləgər Nikol da dərk etmək məcburiyyətindədir ki, divar qurtardığı kimi onun oyunlarının da bir sonu, manipulyasiya etdiyi müstəvinin də bir hüdudu, sərhədi var və ən qısa zamanda, hadisələrin ekstremumu və böhran nöqtəsi labüddür.

Paşinyanın ölkə daxilində qanunçuluğu bərpa edəcəyi, hər şeyi öz yoluna qoyacağı barədə iddiaları onun dövlət idarəçiliyində çox təcrübəsiz olduğunun göstəricisidir. Baş nazir kürsüsünə küçədən gətirilən Nikol, təbii ki, səriştəsiz olmalı idi və bunu əslində, Ermənistan ictimaiyyəti də bilməli idi. Dövlət idarəçiliyi, ələlxüsus, qonşu ölkə ilə illərdir müharibə şəraitində olan, yalnız işğalçılıq siyasəti yürütməsi sayəsində böhran vəziyyətində, səfalət içərisində olan ölkənin idarə olunması, çətin durumdan çıxarılması asan məsələ deyil və bu iş idarəçilik təcrübəsindən əlavə, nüfuz, qətiyyət, uzaqgörənlik kimi liderlik keyfiyyətləri tələb edir. Qərbin oyuncağına çevrilmiş bir marianetdən isə bu kimi liderlik keyfiyyətlərini, bacarıq və qabiliyyətlər gözləmək olmaz. Bu baxımdan, Paşinyanın iddiaları absurddur və bu küçə adamının hakimiyyət başına gətirilməsi Ermənistan üçün əsl faciədir. Nəinki Nikol, hətta ermənilər özləri də Qərbin aləti olmağa razılıq verdilər və hər zaman kimlərinsə idarəetməsi altında olan erməni xalqı bu dəfə öz müqəddəratını daha təhlükəli ssenariyə qurban etdi. Demokratiya adı altında Ermənistanda qarmaqarışıqlıq yaradanların oyunlarından bəhrələndiyini, baş nazir postunu ələ keçirdiyini zənn edən Paşinyan isə çiyinlərini daşıya bilməyəcəyi yükün altına qoymaqla həm özünün, həm də ölkəsinin süqutuna və məhvinə rəvac verdi.

**İnam İMRANOĞLU**

# “Son zəng” çalındı

***Bu gün Azərbaycanda bütün ümumtəhsil müəssisələrində onbirillik məktəb həyatının “Son zəng”i çalındı. 2017/2018-ci dərs ilinə yekun vuruldu. On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşları kimi həyata qədəm qoyacaqlar. 2017-2018-ci tədris ilinin sonuna olan məlumata istinadən, təkcə Bakı şəhəri üzrə məktəblərin buraxılış siniflərini 48 277 şagird, IX sinifləri 28 125, XI sinifləri isə 19 192 nəfər bitirəcək.***

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib.

Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

Təkcə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar və bu, davam edir. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Qeyd edək ki, Dövlət Proqramı çərçivəsində sonuncu təhsilalanın 2021-ci ildə məzun olması gözlənilir.

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb.

Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb.

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib. Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. 2017-2018-ci tədris ilində müxtəlif layihələr reallaşıb. Respublika və beynəlxalq səviyyədə fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. 2017-2018-ci tədris ilində beynəlxalq olimpiadalarda qazanılmış medalların sayı 13 olub. Respublika fənn olimpiadalarında 33 mindən çox şagird iştirak edib, 45 nəfər qızıl, 89 nəfər gümüş, 142 nəfər bürünc olmaqla 276, Naxçıvan MR daxil olmaqla isə, 298 nəfər qalib elan edilib. Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.



Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkib. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Müasir dövrümüz elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə gedən yenidənqurma işləri, iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Yaşadığımız yüzillik “Təhsil və informasiya əsri” elan edildiyindən, ölkə başçısı tərəfindən təhsilə böyük önəm verilir. Yeni proqram və layihələr, təhsil islahatları həyata keçirilir. Prezident İlham Əliyevin dediyi kimi, “Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir”. Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Belə bir mühitdə təhsil alan bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar. Sabitliyin və əmin-amanlığın hökm sürdüyü Azərbaycanda məktəblərdə çalınan “Son zəng” - həyata çağırış zəngi məzunların işıqlı sabahına yeni yollar açır. Yolunuz uğurlu olsun, MƏZUNLAR!

***Nəzakət ƏLƏDDİNQIZI***

# İqtisadi inkişafın təməli 25 il öncə qoyulub

## *Yeni Azərbaycan Partiyası Cəlilabad rayon təşkilatının təşkilatçılığı ilə Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib*

Dünən YAP Cəlilabad rayon təşkilatının qərargahında gənclərlə 15 İyun Milli Qurtuluş Günü ilə əlaqədar görüş keçirilib. Tədbiri giriş sözü ilə YAP Cəlilabad rayon təşkilatının sədri M.Mirxaslı açmış və qeyd etmişdir ki, ağır böhranlı durumun hökm sürdüyü Azərbaycanda xalqın çağırışı ilə 15 iyul 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev apardığı düzgün, məqsədyönlü siyasəti ilə ölkəmizdə siyasi sabitliyə və iqtisadi uğurlara nail oldu: “Məhz Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində ölkə iqtisadiyyatının bütün sahələri üzrə inkişaf strategiyası işlənib-hazırlanmış və onun həyata keçirilməsinə başlanmışdır”. Təşkilat sədrinin sözlərinə görə Dahi Öndər Heydər Əliyev ideyalarını gündəlik fəaliyyətində rəhbər tutan Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasət sayəsində son 15 ildə ölkədə həyata keçirilən iqtisadi islahatlar ölkəmizin əsaslı surətdə iqtisadi inkişafının təmin olunmasına şərait yaratmışdır ki, bu da respublikamızın hər bir vətəndaşında gələcəyə böyük inam və əminliyi daha da möhkəmləndirmişdir.



Tədbirdə çıxış edən Vüsal Kazımov, Elçin Hüseynov, Adəm Nuriyev, Famil Həmzəyev, Elmar İbadov, Asim Mustafayev, Ziya Qürbətov və başqaları qeyd etmişlər ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaradıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb.

***NƏZAKƏT***

# Sorosun uşaqları yenə də iş başındadırlar

## *Qondarma "Media klubu"nun təsisçiləri vaxtı ilə "reket"çilikdə ad çıxarmış şəxslərdir*

***Birmənalı şəkildə demək olar ki, Azərbaycanda söz və mətbuat azadlığı ən yüksək səviyyədə təmin edilir. Bu da Azərbaycanın hüquqi-demokratik inkişaf yoluna sədaqətli olduğunun göstəricisidir. KİV-lə bağlı qəbul edilən qanunlarda, imzalanan prezident sərəncam və fərmanlarında əsas xətt bu istiqamətdə uğurları və nailiyyətləri bir qədər də inkişaf etdirməkdir. Məhz bunun nəticəsidir ki, qəzetlərin borcunun ödənməsindən başlamış Azərbaycan Milli Mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, bu münasibətlə mətbuat işçilərinin təltifi, fəxri adlar verilməsi, habelə, kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə yüksək qiymətin göstəricisidir***



O cümlədən, mətbuat işçiləri üçün dövlət hesabına yaşayış binalarının tikilməsi də mətbuata yüksək diqqət və qayğının bariz nümunəsidir. Xüsusi vurğulamaq lazımdır ki, jurnalistlər üçün dövlət hesabına yeni mənzillərin inşası dünya miqyasında analoqu olmayan bir addımdır. Hər il maliyyə yardımlarının göstərilməsi, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi, bir daha sübut edir ki, mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli xarakter daşıyır. Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması bu konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Kütləvi informasiya azadlığı haqqında qanunun birinci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasında kütləvi informasiyalar azaddır. Kütləvi informasiya azadlığı vətəndaşların qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət təminat verir. Amma diqqətçəkən məqam ondan ibarətdir ki, bəzi əlləri xarici maraqlı dairələrin cibində olanlar yaradılan bu demokratik mühitdən öz şəxsi maraqlarının dövlət mənafeyinə zidd şəkildə həyata keçirməklə nail olmağa çalışırlar.

### Görünür, Corc Sorosa elə Əvəz Zeynallı kimi insanlar lazımdır

Bu faktdır ki, əsasən, Azərbaycana qarşı qərəzli fəaliyyətləri ilə seçilən xarici maraqlı dairələr ələbaxım funksiyasını yerinə yetirən dağıdıcı müxalifət təmsilçilərindən istifadə edir. Elə bu günlər AXCP sədri Əli Kərimlinin Rusiyanın qaranlıq dairələrindən 412 min dollar alması barədə əldə olunan mövcud faktlar mətbuatda müzakirə olunan mövzulardandır. Artıq bəlli olduğu kimi, Azərbaycan hüquqmühafizə orqanları istintaq araşdırmalarına başlayıblar. Bundan öncə də, Ə.Kərimli, eləcə də, Müsavatın keçmiş başqanı İsa Qəmbər və indiki başqanı Arif Hacılı xarici dairələrdən maliyyə yardımları almaqla ölkəmizdəki mövcud ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstəriblər. Siyasiləşmiş mətbu orqanların isə birbaşa xarici maliyyə dairələri ilə əlaqələrinə dair məlumatlar bir o qədər çox deyil. Yəni siyasiləşmiş mətbu orqanlar maliyyə yardımlarını sığındıqları siyasi partiyalar vasitəsi ilə əldə ediblər. Bu günlər yayılan məlumatlar isə, onu deməyə əsas verir ki, artıq siyasiləşmiş mətbu orqanlar vasitəçilərin iştirakı olmadan birbaşa xarici maliyyə institutları ilə əlaqələr qururlar. Bir neçə jurnalistika prinsiplərini və qanunlarını pozduqları üçün KİV dairəsindən uzaqlaşdırılan "yazar"ın Soros fondunun ayırdığı maliyyə yardımı hesabına "Media klubu" adlı qondarma qurum yaratmaları deyilənlərə misal ola bilər. Təsisçilərin iddialarına görə, məqsədləri guya "ölkənin müstəqil, sağlam informasiya məkanının formalaşdırılmasıdır". Özlərini "media ictimaiyyətinin nümayəndələri" kimi təqdim edən təsisçilərin yaydığı açıqlamada qeyd olunur ki, onlar Azərbaycanda müstəqil, keyfiyyətli və məsuliyyətli KİV-in təşəkkülünə və ona olan ictimai etimadın bərpasına kömək edəcək mühitin yaradılması, o cümlədən, informasiya vasitələrinin manipulyasiya, təcavüz, təhqir və yalan sisteminə çevrilməsi cəhdlərinin qarşısının alınması məqsədi ilə səylərin birləşdirilməsini zəruri hesab edirlər.

### Satmağa və satılmağa öyrəncəli olanlar

Bu başdan demək olar ki, ideya boğazdan yuxarıdır, əsl məkr və niyyət gizlədilir. Çünki ideya müəllifləri olan "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı, "Azadlıq" qəzetini redaktoru Rövşən Hacıbəyli, "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədr və tarixin arxivində olan "Gün səhər" qəzetinin baş redaktoru Arif Əliyev, "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev, "Ayna-Zekalo" qəzetini baş redaktoru Elçin Şıxlı müxalifət qazanının dibini yalayan və bunun hesabına özlərinə imkanlar qazandıran şəxslərdir. Bunu "Media klubu"nun təsisçilərindən olan Mehman Əliyev bir zaman vicdana gəlib, özü etiraf etmişdi. Bildirmişdi ki, 2000-2010-cu illərdə Azərbaycan mediasına 150 milyondan çox qrant ayrılıb. Təbii ki, ayrılan vəsaitlərdən M.Əliyev özünə cahcəlal qurub, maşın və obyektlər əldə edib. Çünki bir ara M.Əliyev "Soros" Fondunun Azərbaycan nümayəndəliyinin rəhbəri olmuşdu. Bu zaman daxil olan vəsaitlərin daha çox hissəsini kitabdan-kitaba keçirməklə özü mənimsəyib. Təkcə bir faktı qeyd etmək lazımdır ki, M.Əliyevin Nyu-Yorkdakı evinin dəyəri 5 milyon dollar qiymətləndirilir.

Əvəz Zeynallı o şəxsdir ki, reketçilik etdiyi üçün damğalanmışdı. Azadlığa çıxdıqdan sonra da öz əməllərini davam etdirmişdir. Yəni insanların şərəf və ləyaqətini təhqir etmək və bu yolla pul qazanmaq onun ənənəvi fəaliyyətindən olmuşdu. Bu isə, onu deməyə əsas verir ki, həqiqətən də, atalar misalında deyildiyi kimi, qozbeli qəbir düzəldər. Ə.Zeynallının Sorosun puluna şirniklənib meydana çıxması onun riyakarlığının və pula hərisliyinin göstəricisidir. Görünür, Corc Sorosa elə Ə.Zeynallı kimi insanlar lazımdır. İstifadə edib, sonra da atsın.

E.Şıxlı və A.Əliyev də satmağa və satılmağa öyrəncəli olan simalardır. A.Əliyev "Gün səhər" adlı qəzet təsis edib, fəaliyyətə başladığı zaman 450 min dollar qrant almışdı. Əməkdaşlarına böyük məbləğdə maaş və qonorar verirdi. Amma bu izdivac uzun çəkmədi. Qəzet ictimai maraqları təmin etmədiyi üçün fəaliyyətini dayandırdı. Bundan isə A.Əliyev 250 min dollar qazanc əldə etdi.

Bir sözlə, demək olar ki, "Media klubu"nu yaradanlar yenidən boşalmış ciblərini doldurmağı planlaşdırırlar. C.Soros da onların pula hərisliyini bildiyindən Azərbaycanda məkrli ideyalarını reallaşdırmaq üçün geniş fəaliyyətə başlayıb. Ancaq bu başdan demək olar ki, Soros və Sorosun uşaqları rolunda meydana çıxmağa çalışanların iflas gözləyir. Ən azı ona görə ki, pulla ehtiyacları və problemləri həll etmək olar, ancaq hədəflərə çatmaq və məkrli planlar reallaşdırmaq mümkün deyil.

***İ.ƏLİYEV***

# "Müxalifət liderləri utanmalıdır"

## *Təhmasib Novruzov: "Müxalifətin gördüyü hər bir işin arxasında xarici qüvvələrin göstərişi dayanır"*




Bu, artıq bir faktdır ki, son 25 ildə müxalifət milli siyasi məkanda yalnız öz maraqlarının təmin olunması baxımından fəaliyyətini qurub. Məhz adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai-siyasi proseslərdə uğur qazana bilməyiblər və ictimai dəstəkdən məhrum olunublar. Xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digər qaragüruhçular hər dəfə ayrı-ayrı dövlətlərdə xoşagəlməz hadisələr baş verəndə, özlərinin varlığını sübut etmək fəallaşır, diqqət mərkəzinə çevrilməyə çalışırlar. "Azadlıq" Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifət partiya yetkililərinin mehriban düşmənlərdirlər: "Müxalifət nə vaxt mehriban olub ki, indi də olsun. Sadəcə olaraq, müxalifət liderlərinin özlərinə sərf edəndə və xarici qüvvələrin tapşırığı olanda, onlar hansısa bir məsələ ilə bağlı bir araya gəlirlər. Amma bu da çox uzun çəkmir. Onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin mövcudluğu cəmiyyət üçün də maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət liderləri utanmalı və əski mövqelərinə çəkilməlidirlər".

T.Novruzov onu da bildirdi ki, hər zaman olduğu kimi, yenə də müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir".

T.Novruzov onu bildirdi ki, istər-istəməz müxalifətin gördüyü hər bir işin arxasında xarici qüvvələrin göstərişi dayanır: "Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər ancaq xaricdən ötürülən pul və verilən tapşırıqlar əsasında fəaliyyət göstərirlər. Bu gün bunların işi xaricdən gələn pulları müzakirə edərək, bölməkdən ibarətdir. Belə olan halda da, xaricdə olan həmin qüvvələr də öz istəklərini həyata keçirmək üçün bunlardan bir vasitə kimi istifadə edir. Tam şəkildə demək olar ki, müxalifət partiya sədrlərinin əsas işləri satılmaqla xaricdən pul almaqdır, onların başqa siyasətləri yoxdur".

***GÜLYANƏ***

### Bu il ərzində 920 mindən çox suriyalı qaçqına çevrilib

BMT-nin məlumatına əsasən, bu ilin ilk dörd ayı ərzində Suriyadakı vətəndaş müharibəsi nəticəsində 920 mindən çox suriyalı qaçqına çevrilib. Bu, münaqişənin başladığı 2011-ci ildən bəri dörd aylıq qısa müddət ərzində qeydə alınmış ən yüksək göstəricidir. AZƏRTAC xəbər verir ki, Cenevrədə mətbuata açıqlama verən BMT-nin yardım üzrə koordinatoru Panos Moumtzis Suriya münaqişəsi nəticəsində qaçqın düşən şəxslərin sayının 6,2 milyon nəfərə çatdığını bildirib. Onun sözlərinə görə, Suriya qaçqınlarının 5,6 milyon nəfəri ölkə hüdudlarından kənara pənah aparıb. Aktual vəziyyətin "yüksək partlayış" həddinə çatdığını qeyd edən koordinator hökumət qüvvələrinin qiyamçıların əlində olan İdlib əyalətinə hücumları gücləndirəcəyi təqdirdə, həmin regiondan təxminən 2,5 milyon nəfərin Türkiyə sərhədləri istiqamətində qovula biləcəyinə dair xəbərdarlıq edib. BMT eksperti bu ilin aprel ayında Şərqi Quta bölgəsində mülki əhalinin başına gələn təhlükələrin digər regionlarda da təkrarlanmasından ehtiyat etdiyini vurğulayıb.

***Müasir dünyada ATƏT-in üzvləri olan dövlətlər tərəfindən insan hüquqlarına riayət olunması hər bir ölkənin öz daxili işi deyil, onların ümumi qayğısı və kollektiv məsuliyyətinin predmeti kimi qiymətləndirilir. İnsan hüquqları və azadlıqlarının bəyan və müdafiə edilməsi demokratik siyasi rejimin əsas əlaməti kimi çıxış edir. Demokratiya xalq hakimiyyəti və cəmiyyətin mütərəqqi siyasi təşkili forması olmaqla, müasir inkişaf etmiş siyasi sistemlərin başlıca xüsusiyyətidir. Bir çox tərifləri ümumiləşdirərək, belə bir tərif vermək olar ki, demokratiya - insanın və vətəndaşın hüquq və azadlıqlarına hörmətə əsaslanan real xalq hakimiyyətini təmin edən siyasi və vətəndaş cəmiyyətinin təşkilidir. Buradan azad ictimai həyatın sosial modelinin idealı kimi demokratiyanın bir sıra prinsipləri irəli gəlir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# İnsanların məhkəmə müdafiəsi hüququ və digər hüquqlarının Konstitusiyalarda tətbiqi

Onlardan da biri-azadlıq prinsipidir. Siyasi kontekstdə azadlıq, ilk növbədə, şəxsi azadlığı, həmçinin, sosial qruplar üçün onların üzərində hər hansı siyasi qüvvələrin üstünlüyündən, hökmranlığından azadlığı nəzərdə tutur. Azadlıq, həmçinin, şəxsiyyət və ya qrupun öz siyasi cəhətdən müqəddəratını təyin etməyinin, onların ictimai işlərin idarə olunmasında fəal iştirakının real seçim imkanlarıdır. Əlbəttə, demokratiya fərdin, digər subyektin hakimiyyətdən, ümumiyyətlə, azadlığı demək deyil. Mütəxəssislərin fikrincə, hakimiyyətdən həddsiz azadlıq, birlik üçün təhlükəlidir və beləliklə də, azadlığın məhdudlaşdırılması da demokratiyanın problemidir.

Demokratik cəmiyyətdə azadlıq insan hüquqları vasitəsilə reallaşır. İnsan hüquqları demokratiyanın mühüm elementləri kimi tam, bütöv sistem yaradır və vəhdət təşkil edirlər.

Demokratik dövlətdə idarəetməyə konstitusion-dövlət idarəetməsi kimi baxılsa, daha dəqiq olar ki, bunun da mahiyyəti cəmiyyətin bütün tənzimləyici sisteminin bazası olan Əsas Qanuna-Konstitusiyaya söykənilməsindən ibarətdir. İnsanın konstitusion hüquq və azadlıqları şəxsiyyətin fərdi fəallıq potensialını əks etdirir və bu fəallığın nizamlanmasının ölçüsü kimi çıxış edirlər. Tədqiqatçıların fikrincə, demokratik dövlətdə vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi mexanizmləri arasında məhkəmə, müdafiəsi ən səmərəli vasitə kimi çıxış edir. Bu baxımdan, Avropa Konvensiyasının 6-cı maddəsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ədalətli məhkəmə mühakiməsi haqqında hüququ təsbit edən bu maddə Avropa Konvensiyasında mərkəzi yerlərdən birini və hüququn aliliyinin əsas prinsipini müəyyən edir. Ədalətli mühakimə hüququnun mühüm tərkib hissələrindən birini də hər kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququ təşkil edir. Bu hüquq yenə Avropa Konvensiyasının 6-cı maddəsində sadalanan fərdin mülkü hüquq və vəzifələri müəyyən edilərkən, yaxud elan olunmuş hər hansı cinayət ittihamına baxılarkən, onun hüquqlarına təminat verən əsas müdafiə mexanizmlərindən biridir.

Müasir demokratik cəmiyyətdə, X.Məmmədovun fikrincə, hüquq və azadlıqların məhkəmədə müdafiəsi hüququnun, əsasən, üç ünsürün vəhdətini ehtiva etdiyini söyləmək mümkündür:

- qanun əsasında yaradılmış, müstəqillik və qərəzsizlik şərtlərinə cavab verən məhkəmənin mövcudluğu;
- mübahisənin və ya ittihamın bütün aspektlərinə dair qərar qəbul edə bilən kifayət qədər geniş səlahiyyətlərə malik məhkəmənin mövcudluğu;
- hər kəsin müraciət etmək hüququnun təmin edildiyi məhkəmənin mövcudluğu;

Vətəndaşların məhkəmə şikayətinin obyektini dövlət orqanlarının (hakimiyyətin hər üç qolunun), siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətləri (yaxud hərəkətsizliyi) təşkil edir. Ümumiyyətlə isə, qeyd olunan subyektlərin aşağıdakı xarakterli qərar və hərəkətlərindən (hərəkətsizliklərindən) məhkəməyə şikayət edilə bilər:

- vətəndaşın hüquq və azadlıqları pozulduqda;
- hüquq və azadlıqların həyata keçirilməsinə maneələr yaradıldıqda;
- vətəndaşın üzərinə hər hansı qeyri-qanuni vəzifə qoyulduqda;
- vətəndaş qeyri-qanuni olaraq hər hansı növ məsuliyyətə cəlb edildikdə.

Hər kəsin hüquq və azadlıqlarını müdafiə məqsədilə məhkəməyə müraciət etmək hüququnu tanıyan dövlət bununla öz üzərinə həm neqativ, həm də pozitiv öhdəlik götürür. Neqativ öhdəlik onunla ifadə olunur ki, dövlət vətəndaşların məhkəməyə müraciət etmək hüquqlarını müxtəlif qərar və hərəkətləri ilə əngəlləyərək çətinləşdirməməlidir. Pozitiv öhdəlik isə dövlət tərəfindən vətəndaşların məhkəməyə müraciət hüququnun səmərəli şəkildə reallaşdırılması üçün kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur (məsələn, ödənişsiz hüquqi yardım göstərilməsi, məhkəmə xərclərinin bir qismindən azad edilməsi və s.)

Demokratik cəmiyyətdə hüquq və azadlıqların məhkəmədə müdafiəsi hüququnun əsas prinsiplərindən birini hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi təşkil edir. Bu hüquq həm qanunvericilik müddəalarının ayrı-seçkiliyə yer verməməsini, həm də hakimlərin və məmurların qanunları tətbiq edərkən, ayrı-seçkiliyə rəvac verən şəkildə davranmalarını müəyyən edir. Qanun qarşısında bərabərlik hamıya münasibətdə qanunun bərabər müdafiəyə təminatın verilməsinin ifadəsidir. Buna görə də, dövlət orqanları tərəfindən nizamlanan və fəaliyyət göstərən bütün hüquqi və praktiki sahələrdə hər hansı ayrı-seçkiliyə yol verilməsi qadağandır. K.V.Talıbova göstərir ki, dünya təcrübəsində hüquq və azadlıqların müdafiəsi funksiyası konstitusiya yurisdiksiyalı orqanlar tərəfindən onların fəaliyyətinin üç əsas formasından istifadə edilməsi yolu ilə həyata keçirilir; qanunların və digər normativ aktların, eləcə də, məhkəmə qərarlarının və inzibati qərarların konstitusiyaya və onda təsbit olunmuş insan, vətəndaş hüquqları və azadlıqlarına uyğun olmasına abstrakt, konkret və fərdi nəzarət formasında.

Abstrakt nəzarət qəbul olunan qanunların və digər normativ aktların tətbiqindən asılı olmayaraq, konstitusiyaya uyğun olmasına dair Konstitusiya Məhkəməsinə sorğu verilməsini nəzərdə tutur. Belə nəzarət fərdi-insan hüquq və azadlıqlarının subyekti, habelə, müxtəlif vətəndaş birliklərinin, hüquqi şəxslərin insan hüquqları və azadlıqlarının qanunlar, normativ aktlar və məhkəmə qərarlarında pozulmasına dair Konstitusiya Məhkəməsinə şikayət verməsini nəzərdə tutur. Konstitusion şikayət fərdin dövlət orqanlarının özbaşınalıqlarından müdafiəsinin mühüm hüquqi vasitəsi kimi çıxış edir. Demokratik cəmiyyətdə insan hüquqlarının ali təminatçısı qismində Konstitusiya Məhkəməsi fəaliyyət göstərir və onların daim inkişaf etdirilməsi, zənginləşdirilməsi və məzmununun dərinləşdirilməsində böyük rol oynayır.

Bu baxımdan, uzun müddət Fransa Konstitusiya Şurasının üzvü olan professor F.Lüşerin "Şəxsiyyətin hüquq və azadlıqlarının konstitusiya müdafiəsi" monoqrafiyası maraq doğurur. O özünün kitabında Fransa Konstitusiya Şurasının 30 ildən artıq müddətdə vətəndaşların konstitusiya hüquqları və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini və qəbul etdiyi qərarlarını təhlil edir, onların təmin edilməsinin prosedur formalarını göstərməyə çalışır. Buraya, ilk növbədə, Konstitusiya Şurası tərəfindən həyata keçirilən ilkin nəzarət aid edilir; ikincisi, bundan sonra növbəti nəzarətdir ki, bu da əsasən Konstitusiya Şurasının təşəbbüsünə əsaslanır, lakin ayrı-ayrı vətəndaşların şikayəti əsasında keçirilir; üçüncüsü, digər yurisdiksiyalı orqanlar tərəfindən həyata keçirilən nəzarətdir.

F.Lüşer Konstitusiya Şurası mövqeyindən çıxış edərək göstərir ki, hüquq və azadlıqlar mütləq deyil: əksinə, hər bir hüquq və hər bir azadlığın dəqiq reqlamentləşdirilmiş çərçivələri vardır; onlara vəzifələr uyğun olur, məsələn, "ümumi mənafeyə" riayət etmək, başqa şəxslərin hüquqlarına qəsd etməmək, xeyirxah, xoş xasiyyətə malik olmaq, adətlərə hörmət etmək, başqa vətəndaşların maraqlarına toxunan özbaşına, zorakı hərəkətlərə yol verməmək formalarında. Əlbəttə, hüquqi dövlətdə qoyulan hər hansı bir məhdudiyyət yalnız fərdin xeyrinə ola bilər.

Müəllif belə bir məsələyə də diqqət yetirir ki, hüquq və azadlıqlara ayrı-ayrı məhdudiyyətlər obyektiv olaraq dövlətin milli təhlükəsizliyi və milli müdafiənin təmin edilməsi funksiyalarından, beynəlxalq müqavilələr və sazişlərdən, əmlakın istifadə olunması və ehtiyatların ayrı-ayrı növlərinin yenidən bölünməsində bəzi məcburi tədbirləri müəyyən edən respublika quruluşunun sosial xarakterindən irəli gəlir.

F.Lüşer Fransa Konstitusiya Şurasının qərarları prizmasından hüquq və azadlıqların konkret məzmununu açıqlamağa çalışır, azadlıq konsepsiyasının ətraflı analizini verir. Onun tərəfindən azadlıqlar sırasında yerli (ərazi) azadlıqlar da ayrılır; kommuna departamentləri və s. tipli kollektivlərin azadlığı. Azərbaycan spesifikasını nəzərə alaraq, müəllifin gəldiyi belə nəticələr diqqəti cəlb edir ki, kollektivin (ərazinin) statusunun dəyişdirilməsi mərkəzi orqanların təşəbbüsü ilə keçirilən referendum əsasında mümkündür. Əgər belə referendum yerli hakimiyyətlər tərəfindən təşkil olunarsa, onda onun nəticələrinin yalnız mənəvi çəkisi ola bilər. O, hesab edir ki, xalqların öz müqəddəratını təyin etməsinin azadlığı metropoliyadan ayrılmaq üçün bəraətverici arqument ola bilməz: o vaxtadək ki, kollektiv fransız xalqının tərkib hissəsi olaraq qalır, o, bütövlükdə, respublika xalqının rəyindən müstəqil olaraq "öz müqəddəratını təyin edə" bilməz.

Şərq ölkələrindən demokratik ölkə kimi xüsusi maraq doğuran Yaponiyada insan hüquq və azadlıqların 1947-ci ildə qüvvəyə minmiş konstitusiyanın "Xalqın hüquq və vəzifələri" adlı 3-cü fəslində təsbit olunmuşlar. Həmin fəslin əsas müddəaları insanın anadangəlmə, təbii hüquqlar konsepsiyasından çıxış edir, bu hüquqlara konstitusiyada indiki və gələcək nəsillərə nəsib olan əbədi, pozulmaz hüquqlar kimi baxılır. Yaponiya Konstitusiyası dövlət tərəfindən təminat verilən şəxsiyyət hüquq və azadlıqların həyata keçirilməsini cəmiyyətin rolu, xalqın fəaliyyəti ilə bağlayır. Belə ki, burada deyilir ki, hüquq və azadlıqlar xalqın müntəzəm səyləri ilə dəstəklənməlidir, təkcə şəxsiyyət deyil, bütövlükdə, xalq hüquq və azadlıqlardan sui-istifadədən çəkinməlidir və onların ictimai rifah maraqları naminə istifadə edilməsinə görə tam məsuliyyət daşıyır.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

**Səs**

Son səhifə

14 iyun

## *Dubayda robot-polislərdən və dron-taksilərdən istifadə olunur*



Dubayda və Çinin şəhərlərində xidmət sahəsində robot-polislər və dron-taksilərdən istifadə olunur. BBC xəbər verir ki, ötən il Dubayda dünyanın ən yüksək "Bürc-Xəlifə" göydələnində robot-polisin təqdimatı olub. Bir ildən sonra istehsalçı "PAL Robotics" şirkətinin nümayəndəsi bildirib ki, robot-polis populyar turizm məkanları və ticarət mərkəzlərində yerləşdirilib. Polisin köməkçisinə çevrilmiş bu aparatlar turistlərə müxtəlif dillərdə informasiyalar verir və onları istiqamətləndirir. Bundan başqa, robot-polislər vasitəsilə həqiqi polislər insanları müəyyən məsələlər barədə xəbərdar edir, həmçinin cərimələrin ödənilməsini həyata keçirirlər. Dubayın hökumət dairələri 2030-cu ilədək polis əməkdaşlarının dörddəbir hissəsini onlarla əvəz etməyi planlaşdırır.

Dubay şəhərinin rəhbərləri ilə bu layihəni həyata keçirən İngiltərənin Şeffild Universitetinin informatika üzrə professoru Noel Şarki deyib: "İlk mərhələdə bu robotlardan yaşlı insanlara kömək və turistlər üçün bələdçi kimi istifadəsi nəzərdə tutulurdu. Lakin onları bir polis nəfəri olaraq təsəvvür etmək çətindir. Robotlar əsl polisləri köməyə çağırmaq üçün düymələrlə təchiz edilib, lakin özləri köməksiz olan bu aparatları hər kəs vurub aşıra bilər".

Professor Şarkinin sözlərini təsdiq edən insident ötən il Vaşinqtonda baş verib. Ofis binasında təhlükəsizliyi təmin edən robot-polisi birdən-birə qarşıdakı hovuzda tapıblar. Buna baxmayaraq, professor hesab edir ki, qarşıdakı illərdə bu robotlardan istifadə edilməsi daha intensiv olacaq: onlar müşahidə apara bilər, küçələrdə partlayıcı və digər təhlükəli maddələri aşkar edə bilərlər. Artıq Çində robot-polislərdən vağzallarda və hava limanlarında patrul kimi istifadə olunur. Bu ölkənin Şenan şəhərindəki vağzalda post-patrul xidmətinin "əməkdaşı"nı - boyu 1,60 metr olan robot-polisi "E-Patrol Robot Sheriff" adlandırırlar. O, bir neçə videokamera ilə təchiz edilib və xüsusi ötürücülər vasitəsilə binada baş verən kiçik tüstülənməni də qeydə alır. Xüsusi sistemə qoşulmuş robot-polis hətta şübhəli və axtarışda olan şəxsləri aşkar edə bilər.

Yeni texnologiyaları sürətlə tətbiq edən Çində dron-taksilərdən də istifadə edilir. Burada bir çoxları hesab edir ki, onlar nəqliyyatın çox sıx olduğu böyük şəhərlərdə yükdaşıma vasitəsi və sürücüsüz taksi kimi daha geniş miqyasda tətbiq edilməlidir.

Pilotsuz taksilər artıq Dubayda da sınaqdan keçirilib. Bu şəhərdə daha bir texnoloji yenilik - "hoverbayk" adlı hibrid hava motosikleti də hazırlanır. Professor Şarki hesab edir ki, bu texnologiyaların tezliklə kütləvi istehsalı və istismarı mümkün deyil. Çünki onlar baha başa gəlir və tez-tez sıradan çıxır. Dronları hazırlayan Lids Universitetinin elmi işçisi Bilal Qadduh isə bildirib ki, ümumiyyətlə, yaxın gələcəkdə robotlardan şəhərlərin təmizliyində, inşaat sektorunda da istifadə olunacaq. Lakin müəyyən məhdudiyyətlər nəzərə alınmalıdır. Məsələn, insanlar başları üzərində uçan dronların səsindən narahat olur, onları hava məkanına yerləşdirmək də asan deyil. Bir sözlə, texnologiya mövcuddur, amma texniki reqlamentin və insanların münasibətinin dəyişməsi xeyli vaxt aparacaq.

## FIFA Rusiyadakı dünya çempionatından 6,1 milyard dollar gəlir götürəcək




**FIFA** Rusiyada keçiriləcək dünya çempionatından 6,1 milyard dollar gəlir götürəcək. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu məbləğ 2014-cü ildə Braziliyada təşkil olunmuş mundialdakı gəlirdən 1,3 milyard dollar çoxdur. Yayım hüquqlarından əldə olunan vəsait 2 faiz artıb. Həmçinin FIFA sponsorluq müqavilələri nəticəsində gözləniləndən 200 milyon dollar çox gəlir əldə edəcək. Bu, Çin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi sayəsində mümkün olub. Dünya çempionatına sponsorluq edən 20 şirkətdən 7-si Çini təmsil edir. 2014-cü ildəki mundialda isə Çinin yalnız bir şirkəti var idi. İyunun 14-dən iyulun 15-dək.

## Fernando Hierro İspaniya millisinin baş məşqçisi təyin olunub



İyunun 13-də futbol üzrə İspaniya milli komandasının baş məşqçisi Xilen Lopeteqinin istefaya göndərilməsindən sonra bu vəzifəyə yığmanın idman direktoru Fernando Hierro təyin olunub. İspaniya Kral Futbol Federasiyasının (RFEF) "Twitter" səhifəsində yer alan məlumata görə, F.Hierro çempionat müddətində komandaya rəhbərlik edəcək. Xatırladaq ki, iyunun 12-də İspaniya yığmasının əvvəlki çalışdırıcısı Xilen Lopeteqinin dünya çempionatından sonra "Real Madrid" komandasına rəhbərlik edəcəyi açıqlanmışdı. Bu xəbər İspaniya millisində birmənalı qarşılanmadığından RFEF-in prezidenti Luis Rubiales baş məşqçinin dərhal istefasını tələb edib. Bundan sonra X.Lopeteqi milli komandanın düşərgəsindən ayrılıb.

## Yeniyetmə güləşçilər AÇ-də iştirak edəcək



İyunun 15-17-də Macarıstanın Györ şəhərində 2003-2004-cü il təvəllüdlü yeniyetmə güləşçilər arasında Avropa çempionatı keçiriləcək. SİA-nın məlumatına görə, sərbəst və yunan-Roma güləşi üzrə yığmamızın üzvləri çempionatda iştirak edəcək. İlk yarış günündə sərbəst güləşçilər xalça üzərinə çıxacaq. Məşqçi Namiq Quliyevin rəhbərliyi altında Əbdül Abdullayev, İbrahim Musayev (hər ikisi 38 kq), Cavid Cavadov (41 kq), Ramik Heybətov, Ceyhun Allahverdiyev (hər ikisi 44 kq), Əkbər Vəliyev (48 kq), Riyad Aslanov (52 kq), Məmməd Əhmədov, Məhəmmədəli Quliyev (57 kq), Məmmədəli Əliyev (62 kq), Fuad Yunusov (68 kq) və Varis Mehdizadə (75 kq) ölkəmizi təmsil edəcək. Son yarış günündə mübarizə aparacaq yunan-Roma güləşçiləri isə çempionatda məşqçi Əfsər Namazəliyevin rəhbərliyi altında iştirak edəcək. Heyətdə Rəşad Həsənli, Zamiq Kərimov (hər ikisi 41 kq), Alim Balaşlı, Cavidan Məmmədli (hər ikisi 44 kq), Teymur Əhmədli (48 kq), Elmir Əliyev (52 kq), Fərid Zeynalabdinov, Xanəhməd Zeynalov (hər ikisi 62 kq), Əli Əlizadə (68 kq) və Emil Əmiraslanov yer alıb. Görüşlərin idarə edilməsində ölkəmizi milli dərəcəli hakimlər Həbub Nurlu və Əli Babayev təmsil edəcək. Onlar həmçinin, beynəlxalq dərəcəli hakimlik adı almaq üçün Dünya Güləş Birliyinin təşkil etdiyi kursa qatılacaq, nəzəri və praktiki imtahanda iştirak edəcəklər.

## "Fənərbaxça"nın futbolçusu Ərəbistan klubunda



Türkiyənin "Fənərbaxça" klubu futbolçusu Fernandao ilə yollarını ayırıb. İstanbul klubunun saytında yer alan xəbərə görə, 31 yaşlı hücumçu karyerasını Səudiyyə Ərəbistanının "Əl Vəhda" klubunda davam etdirəcək. Qeyd edək ki, braziliyalı futbolçu 2015-ci ildən İstanbul klubunda çıxış edirdi. Ötən mövsüm uzun müddət zədədən əziyyət çəkən Fernandao Superliqada 18 oyuna çıxıb və 9 qol vurub.

## ELAN

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Bakı şəhəri 3 saylı Hüquq Məsləhətxanasının qeydiyyata alınmasına dair Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilmiş 31 may 2005-ci il tarixli, 1105-Q4-1753 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin V kurs tələbəsi Nurəliyeva Aygül İman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İnşaat" fakültəsinin II kurs tələbəsi Qafarov Salman Elçin oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**